www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 3 mart 2015-ci il Çərşənbə axşamı № 47 (6075) Qiymәti 40 qəpik

**Xəbər**

**Bakıda valyutadəyişmə məntəqəsinə basqın; 120 min dollar aparıldı**

yazısı səh.2-də

**Gündəm**

### İsraildən Azərbaycan və Türkiyəyə tarixi reverans



Yəhudi dövləti saxta erməni soyqırımının yubiley tədbirini boykot elədi; aprelin 24-də rəsmi Təl-Əviv İrəvana nümayəndə göndərməyəcək...

yazısı səh.8-də

### Prezident hərbi xidmətlə bağlı sərəncam imzaladı

yazısı səh.2-də

### Xarici ölkə agenti olmağın cəzası...

yazısı səh.6-da

### Boris Nemtsov barədə bilinməyən gerçəklər

yazısı səh.10-da

### İran nümayəndə heyəti "Khazar İslands" layihəsi ilə tanış oldu

yazısı səh.5-də

### Los Ancelesdəki konsulluğumuzda pul davası

yazısı səh.10-da

### "Aslan Aslanovun verdirdiyi işgəncələrə görə bir ayağımı kəsiblər..."

yazısı səh.12-də

### Dövlət Toxum Fondu yaradıldı

yazısı səh.2-də

### Şəhid anasının çörək dükanı əlindən alındı

yazısı səh.12-də

### AZAL-ın yeni qiymətləri turizm şirkətlərini "batırdı"

yazısı səh.13-də

### Dərmanların qiymətinə hökumət nəzarət edəcək

yazısı səh.2-də

### Neft ucuzlaşmaqda davam edir

yazısı səh.4-də

### Mağazalarda süni bahalaşmanın gizli üsulu

yazısı səh.15-də

**Ziya Məmmədovun qardaşı oğlu keçmiş gəmi bosunun "çatısı" altında**

# MƏMMƏDOVLARIN RƏQİBLƏRİNƏ "KODLU" BARMAQ İŞARƏSİ

Onların çöküşünü gözləyənlərlə Aynar Məmmədovun əl işarəsinin nə əlaqəsi?; Deputat oğlunun kafe-restoranın yerləşdiyi "Glass Plaza" ticarət mərkəzi bir vaxtlar nəqliyyat naziri ilə yola getməyən Xəzər Dəniz Gəmiçilik İdarəsinin sabiq rəisi Aydın Bəşirova məxsusdur




yazısı səh.6-da

# Bakıda "Qiymət artımına son!" aksiyasını ermənilər təşkil edib? - şok iddia

Etiraz aksiyasının təşkilatçıları barədə sensasion iddialar dolaşır; siyasilər "bunu hakimiyyət edib" qənaətindədirlər; əks fikirlər də var

yazısı səh.9-da



### Qubad İbadoğlu ölkədən beş aylıq getdi

yazısı səh.5-də



*Mehman Əliyev:*

### "Biz ağır dönəmə qədəm qoymuşuq"

yazısı səh.9-da



### Elmar Hüseynov məzarı başında anıldı

yazısı səh.3-də

# 3 mart 2015

YENİ MÜSAVAT
N 47 (6075) 3 mart 2015

# Prezident hərbi xidmətlə bağlı sərəncam imzaladı



**Prezident İlham Əliyev Azərbaycan Respublikası vətəndaşlarının 2015-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında sərəncamı imzalayıb. (AzərTAc)**

Sərəncamda deyilir ki, 1997-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1980-1996-cı illərdə doğulmuş, yaşı 35-dək olan, AR Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2015-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

Sərəncamda həmçinin deyilir ki, "Hərbi vəzifə və hərbi xidmət haqqında" AR Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2015-ci il aprelin 1-dən 30-dək ehtiyata buraxılsınlar.

# Dövlət Toxum Fondu yaradıldı

**Prezident İlham Əliyev kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Dövlət Toxum Fondu yaradılsın. Nazirlər Kabinetinə bu sərəndacmdan irəli gələn işləri görmək tapşırılıb.**



# Paytaxtda tikilməkdə olan bina uçdu

**Martın 2-də Bakının Nizami rayonunda tikinti işləri gedən binada uçqun baş verib. Hadisə 8-ci kilometr bazarının ("Vosmoy bazarı") arxasında, Nizami Rayon Hərbi Komissarlığının binasının yaxınlığında olub. Uçqun olan zaman fəhlələr iş başında olublar.**

Hadisə yerində olduğumuz zaman uçan binada iş gedirdi. Fəhlələr axşam saatları olmasına baxmayaraq, plana görə 4 mərtəbəli olması planlaşdırılan binanın çökən ikinci mərtəbəsinin bərpası üçün böyük səylə çalışırdılar. Onların fikirlərini almağa çalışsaq da, mümkün olmadı. Danışmaqdan boyun qaçırdılar. Ətrafda xilasedicilər də gözə çarpmırdı.

Sakinlər hadisənin günorta saatlarında baş verdiyini söylədilər. Onlar əraziyə Fövqəladə Hallar Nazirliyinin xilasedici qruplarının gəldiyini və axşamtərəfi getdiklərini bildirdilər.

Apardığımız müşahidələr zamanı hadisənin tikilən binanın ikinci mərtəbəsinin betonun ağırlığına tab gətirməməsi nəticəsində baş verdiyi məlum oldu. Ətraf ərazidə yaşayan sakinlər tikinti işləri ilə məşğul olan qurumların insanların həyatına biganə olmalarından şikayətləndilər. Onlar qeyd etdilər ki, binanın tikintisi iki ilə yaxındır davam edir. Böyük hasara alınan ərazidə yan-yana 4 binanın tikintisi nəzərdə tutulur. Uçqun baş verən binanın 2-ci, digərlərinin isə 1-ci mərtəbəsində tikinti işləri aparılır.

Hadisə baş verən vaxt fəhlələr iş başında olsalar da, xoşbəxtlikdən xəsarət alan olmayıb. Buna əsas səbəb nahar vaxtının olması olub.

Sonda onu qeyd edək ki, tikinti işlərinə rəhbərlik edən şəxsin baş verən hadisəyə münasibətini öyrənməyə çalışsaq da, o, üzə çıxmadı.

❑ **Cavanşir ABBASLI**
**Foto müəllifindir**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# "Ermənistanla sərhəd məsələsini Obama, Putin və Ollandla müzakirə etmişəm..."



**Türkiyə prezidenti Rəcəb Tayib Ərdoğan Səudiyyə Ərəbistanına səfəri çərçivəsində bir daha Ermənistan-Türkiyə sərhədləri məsələsinə toxunub. Musavat.com xarici informasiya qaynaqlarına istinadən xəbər verir ki, təyyarədə jurnalistin "sərhədlərin açılması müzakirə edilirmi" sualını cavablandıran prezident deyib ki, "Dağlıq Qarabağ probleminin həllində irəliləyiş olmayınca sərhədlər açıla bilməz".**

"Obama, Putin və Ollandla biz bu məsələni müzakirə eləmişik. Onlar deyiblər ki, irəliləyişin marağında olublar və olacaqlar. Ancaq hələ ki nəticə yoxdur" - əlavə edib Türkiyə dövlət başçısı.

Xatırladaq ki, sərhədlərin açılmasını nəzərdə tutan Sürix protokolları məhz rəsmi Ankaranın Qarabağ şərtinə görə reallaşmayıb.



## Dərmanların qiymətinə hökumət nəzarət edəcək

**"Azərbaycanda yaxın vaxtlarda dərmanların qiymətinə hökumət nəzarət edəcək".**

AzərTAc xəbər verir ki, bunu baş nazirin müavini Əli Əhmədov jurnalistlərə açıqlamasında bildirib. Baş nazirin müavini bildirib ki, "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilib. Nazirlər Kabineti tərəfindən müvafiq qaydalar hazırlanandan sonra qiymətlər Tarif Şurası tərəfindən təyin olunacaq. Onun sözlərinə görə, hazırda Azərbaycan hökuməti dərmanların vahid qiymətlə satılması üçün müvafiq işlər görür. Aidiyyəti qurumların əməkdaşları apteklərdə müntəzəm olaraq monitorinqlər aparırlar. Məqsəd Azərbaycanda satılan dərman vasitələrinin həm keyfiyyətinə nəzarəti ciddi şəkildə artırmaqdan, həm də onların qiymətinin süni surətdə artırılmasının qarşısı almaqdan ibarətdir.

## Nemtsovun qatilinin meyiti tapılıb?

**Moskvanın Troitsk inzibati dairəsinin Klenovskoye qəsəbəsindəki şəxsi evlərin birində Aslan Alxanovun cəsədi tapılıb. Virtualaz.org saytı Rusiya KİV-lərinə istinadən xəbər verir ki, əməliyyatçılar onun güllə yarasından öldüyünü təsbit edib. Xəbərlərə görə, A.Alxanov Boris Nemtsovun qətlinin təşkilində əsas şübhəlilərdən biri idi.**

Meyitin tapıldığı şəraitin özəllikləri Alxanovun intihar etdiyini göstərir. Özü də söhbət "vaxtından əvvəl" intihardan gedir.

Rusiya KİV-ləri bildirir ki, Alxanovu əməliyyat qrupunun qətlə yetirdiyini söyləməyə əsaslar yoxdur. Çünki Alxanov onlara daha çox diri lazım idi.

## Bakıda valyutadəyişmə məntəqəsinə basqın: külli miqdarda dollar aparıldı

**Bakının mərkəzində yerləşən valyutadəyişmə məntəqələrindən birinə basqın olub. Lent.az-ın hüquq-mühafizə orqanlarından əldə etdiyi məlumata görə, naməlum şəxslər Nəsimi rayonu Azadlıq prospekti 128 ünvanında "ZaminBANK"a məxsus olan 3 saylı valyutadəyişmə məntəqəsinə basqın edib. Onlar məntəqənin əməkdaşı, 1964-cü il təvəllüdlü Abbasov Taryel Arif oğluna küt alətlə ağır bədən xəsarətləri yetiriblər.**

Məntəqədən 120 min dollar və 20 min manat nəğd pulu götürən şəxslər uzaqlaşıblar. T.Abbasov Kliniki Tibbi Mərkəzə yerləşdirilib.




# "Bakı Şampan Şərabları" ASTC-də fəhlə üsyanı

**Martın 1-də "Bakı Şampan Şərabları" ATSC-nin işçiləri müəssisənin qarşısında aksiya keçiriblər. Aksiyada 50 nəfərə yaxın zavod işçisi iştirak edib. Onlar əməkhaqlarının verilməsini tələb ediblər. İşçilər 2 aydır ki, məvacib ala bilmirlər. Onlar tələb edirlər ki, əməkhaqları tam şəkildə devalvasiyaya uğramamış onlara verilsin. Rəhbərlik onlara vəd versə də, vədini yerinə yetirmir.**

Növbəti aksiyanın yaxın günlərdə baş tutacağı gözlənilir. Qeyd edək ki, "Bakı Şərab-1" ASTC-də aylar əvvəl dayandırılıb. Orada da işçilərə əməkhaqları verilməyib. Ümumiyətlə isə ölkədə bahalaşma öncəsi çoxsaylı müəssisəslər fəaliyyətini dayandırıb.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Bu gün qətl sifarişçisinin məhkəməsidir

**Martın 3-də Ali Məhkəmədə şəriki Əflatun Piriyevin qətlini sifariş verməkdə və dələduzluqda ittiham edilərək ömürlük olaraq azadlıqdan məhrum edilmiş Hümbət Məmmədovun müraciətinə baxılacaq. H.Məmmədov cəzasının yüngülləşdirilməsini istəyir.**

Yada salaq ki, 2011-ci il, iyulun 11-də, saat 13 radələrində paytaxtın Nərimanov rayonu ərazisində yerləşən "Azər-Ross" mənzil-tikinti kooperativində qurumun təsisçisi Əflatun Piriyevə və baş mühasib Əmiraslan Əhmədova odlu silahdan atəş açılıb. Hadisə yerinə ilk çatan Hümbət Məmmədov olur və şərikini maşına qoyaraq xəstəxanaya çatdırmaq üçün bütün şəhəri gəzdirir. Ə.Piriyev H.Məmmədovun maşınındaca keçinir. Həkimlər Ə.Piriyevin ölümünün səbəbi kimi aldığı yaralar nəticəsində kəskin qanitirmə olduğunu açıqlayıblar.

H.Məmmədov şərikinin qanı qurumamış onun yas məclisinin təşkilinə girişib. Lakin soyuqqanlı qətl sifarişçisini telefon danışıqları ələ verir.

Onun sifarişini yerinə yetirmiş qatil Vüsal Qurbanov H.Məmmədovdan törətdiyi əmələ görə pulunu istəyib. Bu əsnada qatillə sifarişçi arasındakı telefon danışıqları hüquq-mühafizə orqanlarının əlinə keçib.

İstintaqa cəlb edilən H.Məmmədov vəziyyətdən çıxmaq üçün min bir bəhanə düşünüb. Lakin daşdan keçən sübut - telefon danışıqlarının mətnləri ilə tanış olanda sifarişçi olduğunu boynuna alıb.

❑ **E.MƏMMƏDƏLİYEV**



## Azay Quliyev İsrail səfiri ilə görüşdü

**Martın 2-də Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, millət vəkili Azay Quliyev İsrailin Azərbaycandakı səfiri Rafael Harpaz və onun müavini Ronen Krauszla görüşüb.**

Səfir Harpaz dövlətlərimiz arasında dinamik inkişaf edən münasibətlərin səviyyəsindən razılığını bildirib və Xocalı soyqırımı ilə bağlı bu günlərdə İsraildə keçirilən tədbirdə xarici işlər naziri Aviqdor Libermanın iştirakının buna sübut olduğunu deyib. Səfir Azərbaycan Respublikasının dünyəviliyin sözün həqiqi mənasında mövcud olduğu İslam ölkəsi kimi unikallığı ilə seçildiyini bildirib və ölkəmizin multikultralizm təcrübəsinin bütün dünyada tətbiq olunmasının vacibliyini diqqətə çatdırıb.

A.Quliyev yəhudi icmasının tarix boyu Azərbaycanda bərabərhüquqluluq şəraitində yaşadığını və ölkə həyatının bütün sahələrində fəal iştirak etdiyini deyib. Şuranın bütün QHT-lərlə, o cümlədən yəhudi icmasının yerli və beynəlxalq təşkilatları ilə möhkəm əməkdaşlıq münasibətlərinin qurulmasında maraqlı olduğunu bildirib.

Görüşdə Azərbaycan və İsrail QHT-lərinin əməkdaşlıq imkanları haqqında müzakirələr aparılıb.

## Başçı müavininin oğlunun ölüm işində yeni gəlişmə

**Gədəbəy icra başçısının müavini Qüdrət Paşayevin oğlunun intiharı yenidən araşdırılır. Arqument.az-a verilən məlumata görə, 2012-ci ildə işlədiyi Qobustan həbsxanasında özünü asan Babək Paşayevin ölümü açılmamış işlər siyahısına daxil edilib. Məlumata görə, hüquq-mühafizə orqanlarında intiharın araşdırılması gündəmə gəlib. B.Paşayevin intiharına səbəb kimi azart oyunlarına aludəliyi iddia edilirdi. Onun qəbrinin ekskumasiya olunması da gözlənilirdi. Rəsmi şəkildə onun ölümü intihar kimi qeydə alınmasa da, əldə etdiyimiz xəbərdə B.Paşayevin özünü asdığı iddia edilir.**

Yada salaq ki, "Yeni Müsavat" bu haqda 2012-ci ildə yazmışdı. "İcra başçisi müavininin oğlunun ölümü araşdırılmayıb" sərlövhəli yazıda rayon sakinlərinə istinadən Q.Paşayevin oğlunun intihar etdiyini yazmışdıq.

Sakinlər demişdilər ki, Q.Paşayevin oğlunun ölüm işindən dolayı başlanmış cinayət işinin istintaqı general rütbəli qardaşı Ədalət Paşayevin vasitəsilə dayandırılıb.

Baş Prokurorluqdan isə hadisənin qeydə alınmadığını bildirmişdilər.

❑ **E.MƏMMƏDƏLİYEV**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



**2005-ci il martın 2-də qətlə yetirilən "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun qətlinin 10 ili tamam olub. Bu təqvimlə bağlı keçirilən anım mərasiminə mərhum baş redaktorun yaxınları, dostları, siyasi-ictimai xadimlər, partiya sədrləri və jurnalist həmkarları qatılıblar.**

# Elmar Hüseynov məzarı başında anıldı

## Anım mərasiminə mərhum baş redaktorun yaxınları, dostları, siyasi-ictimai xadimlər, partiya sədrləri və jurnalist həmkarları qatılıblar



**Tədbirdə ilk olaraq çıxış edən "Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev bildirdi ki, Elmar Hüseynovun qətli bütün Azərbaycan mediasına bir mesaj idi:** "10 il öncə, martın 2-də Elmar Hüseynov evinə qayıdarkən mənzilinin qarşısında qətlə yetirildi. Ona 6 güllə atılmışdı və onlardan birini onun ağzına sıxmışdılar. Bu onu göstərir ki, Elmar məhz sözünə, mövqeyinə görə öldürülüb. Bu, bütün Azərbaycan jurnalistikasına bir mesaj idi. Və həmin qətldən sonra Azərbaycan mətbuatının ağır günləri başladı. Biz 10 ildir ki, Elmarın məzarı üzərinə gəlirik, onu yad edirik. Biz bununla növbəti ildə də mübarizəmizə davam etmək üçün özümüzdə güc toplayırıq".

**Milli Şuranın sədri Cəmil Həsənli həmin günü xatırladı:** "15-20 dəqiqə sonra biz hadisə yerində idik. Hava qaranlıq idi. Hadisədən xəbər tutan oraya gəlmişdi. Hətta hakimiyyət nümayəndələri də... Mən Rusiya hakimiyyətinin Boris Nemtsovun qətli ilə bağlı verdikləri bəyanatı eşidəndə heyrətləndim. Çünki eynilə həmin məzmunda bəyanat Elmarın qətli zamanı da verilmişdi".





**Müsavat Partiyasının başqanı Arif Hacılı dedi ki, 10 il bundan əvvəl Elmar Hüseynovun qətlə yetirilməsi xəbərini 14 saylı cəzaçəkmə müəssisəsində alıb:** "Təsadüf elə gətirmişdi ki, Elmarla son görüşümüz də 14 saylı həbsxanada olmuşdu. Onun qətlindən keçən bu 10 il ərzində Azərbaycan hakimiyyətinin apardığı siyasət dəyişməyib. Dəyişiklik olubsa da, pisə doğru olub. Bu gün Azərbaycanda 100-ə yaxın siyasi məhbus var. Elmarın qatillərinin həbs edilməsi üçün Azərbaycanda hakimiyyət dəyişikliyi olmalıdır. Çünki hakimiyyət heç vaxt Elmarın qatillərini tapıb həbs etməyə çalışmayıb. Azərbaycan prokurorlarının Elmarın qatilləri olaraq, elan etdikləri şəxslər hələ də həbs edilməyiblər, onlar rahat şəkildə Gürcüstanda yaşayırlar. Necə olur ki, hakimiyyət həbs etmək istədiyi şəxsi başqa ölkədə belə olsa, tutub gətirə bilir, amma bu illərdə Elmarın qatili dedikləri cinayətkarlar həbs edilmir?"

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn dedi ki, zaman keçsə də, nə Elmarın qətli, nə də onun qatilləri unudulmayacaq:** "Nə zaman ki, qatillər həbs ediləcək, o zaman bizim ürəyimiz sakitləşəcək. İlham Əliyev 10 il öncə söz vermişdi ki, Elmarın qatilləri həbs ediləcək. Amma hələ də heç bir nəticə yoxdur. 10 il öncə Elmarın ölümündən sonra bizi-2003 seçki məhbuslarını həbsdən azad etdilər. Yəni bizim ürəyimizdə onun şəxsi bir haqqı var. Allah bizə o günü qismət eləsin ki, ona borcumuzu ödəyə bilək".

**Əvəz Zeynallı bildirdi ki, Elmar Hüseynovu daima vuruşan, döyüşən jurnalistlərin simvollarından biri hesab edir:** "Biz 90-cı illərin sonlarında müstəqil mətbuatın zaman-zaman sıradan çıxdığının şahidi olduq. Əsasən 1997-1998-ci illərdən başlayan proses Elmarın ölümü ilə yeni bir mərhələyə qədəm qoydu. Çünki müstəqil mətbuat böyük təzyiqlərə dirəniş göstərirdi. Əvvəlcə həbslər başladı. Jurnalistləri 2 il, 3 il müddətində həbs etməyə başladılar. Gördülər ki, nəticə əldə olunmur, növbəti mərhələdə keçdilər 8 ilə, 9 ilə, 10 ilə... İndi ən gülünc ittihamlarla həbs edilən, həbsxanada saxlanılan silahdaşlarımız var. Tofiq Yaqublu, Pərviz Həşimli, Nicat Əliyevi misal çəkmək olar. Siyasi məhbuslardan elə adamlar var ki, cəmiyyət onları tanımır. Amma onlar Azərbaycan üçün faydalı insanlardır".



**Strateji Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbər Elmarın atasını, ötən il vəfat edən Sabir Hüseynovu xatırladı:** "Biz bu müqəddəs məkana gələndə Sabir müəllim də bizimlə olurdu. Bu pilləkənləri birlikdə enirdik. Çox təəssüf ki, Sabir müəllim də öz oğlunun qatillərinin cəzalanmasını görmədən dünyasını dəyişdi. Qətl baş verəndə dedik ki, Elmarın qətlinin arxasında hakimiyyət dayanır. Hər il də buraya gələrək, eyni sözləri təkrar edirik. Hadisədən 10 il keçib. Və hələ də qatillər həbs edilməyiblər. Bu da bizim 10 il əvvəl dediyimiz sözləri təsdiq edir".

**AXCP sədri Əli Kərimli:** "Bu gün Azərbaycanın Elmarsız, onun körpə oğlu Aslanın atasız qalmasından 10 il ötür. Mən də həmin günləri yaxşı xatırlayıram. Həmin günlərdə Elmarın normal dəfninə belə imkan vermək istəmirdilər. Elmarın dostlarının, ailəsinin fədakarlığı sayəsində onu burada layiqli dəfn etdilər. Elmarı qətlə yetirənlər öz istəklərinə nail oldularmı? Qismən, hə... Amma onlar tam olaraq qalib gələ bilməyiblər. Azərbaycan cəmiyyəti susmayıb və susmayacaq".

E.Hüseynov 2005-ci il martın 2-də Bakıda, yaşadığı evin blokunda odlu silahla qətlə yetirilib. Qətldən az sonra - 2005-ci il martın sonlarında Turqay Bayramov adlı şəxs saxlanıb. O, qətldə şübhəli bilinən Teymuraz Əliyev və Tahir Xubanova *(Turqay Bayramov Teymuraz Əliyevin xalası oğludur)* saxta sənədlərlə telefon nömrəsi almaqda təqsirləndirilib və Cinayət Məcəlləsinin 320.1 (sənədlərin saxtalaşdırılması) maddəsi ilə iki il müddətinə azadlıqdan məhrum edilib. Hüquq-mühafizə orqanlarının versiyasına görə, T.Bayramovun aldığı telefon nömrələrindən Elmarın qətlində istifadə olunub. T.Bayramov 2007-ci ilin martında cəzasını başa vuraraq azadlığa çıxıb.

1967-ci ildə Bakıda anadan olan E.Hüseynov İnşaat Mühəndisləri Universitetini bitirib. Jurnalistikaya 1990-cı illərin əvvəllərində gəlib. Bir neçə rusdilli media quruluşunda çalışan jurnalist daha sonra "Monitor" jurnalını təsis edib. Jurnal əvvəl ayda bir dəfə, daha sonra həftədə bir dəfə nəşr olunub.

**Ölümündən sonra Azərbaycanda Elmar Hüseynovun adını daşıyan ictimai qurum - fond yaradılıb.**

**❑ Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir.**

# Elmarı kim öldürdü?

**"Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun qətlindən 10 il keçdi. Bədbin proqnozlar özünü doğrultdu - qətlin nə sifarişçiləri, nə də ki icraçıları həbs edildi. Elmar ildə bir dəfə - 2 martda yada düşür. Halbuki 10 il öncə bu "gözlənilən qətl" bütün Azərbaycanı silkələmişdi.**

Qətlə yetirilən tənqidçi jurnalist demək olar ki, artıq unudulub. İstintaqın 10 il səmərəsiz fəaliyyət göstərməsi yalnız bir nəticə hasil etdi - əsəblər sakitləşdi və baş redaktorun qətli unudulmağa başladı.

Elmar Hüseynovun qətli ilə bağlı istintaqın yubanmasını müxalifət bu işdə yüksək rütbəli dövlət məmurlarının əlinin olması ilə izah edir. Belə ki, qatillərin və onların himayəçilərinin indiyədək hələ də məhkəmə önünə çıxmaması səbəbindən qətlin motivləri Azərbaycanda və xaricdə böyük əksəriyyət üçün müəmma olaraq qalır. Əslində bu işdə hər şey bəllidir - sadəcə nöqtə qoyulmayıb. Bu sirri daşıyanlar arasında ilk gündən istintaqa cəlb olunan Türkiyə və ABŞ xüsusi xidmətlərinin əməkdaşları da var. İstintaqa xarici ölkə mütəxəssislərinin cəlb olunması 10 il öncə böyük ümidlər verirdi. Araşdırmada operativ iştirak edən ABŞ və Türkiyə xüsusi xidmətləri, demək olar ki, bir neçə gün ərzində qatillərin izinə düşə bilmişdilər.

Bir neçə gün ərzində xeyli məlumat əldə edən Türkiyə və ABŞ araşdırmaçıları qətlin sifarişçilərinin və icraçıların kimliyi barədə versiyalarını Azərbaycan hakimiyyətinə təqdim etmişdilər. Lakin sonradan istintaqın gedişi müəmmalı şəkildə məcrasını dəyişdi və Gürcüstan vətəndaşı olan azərbaycanlıları qatil elan etdi. Bu şübhəli versiya rəsmi, amma məhkəmə qaydasında sübut edilməmiş versiya kimi möhkəmləndi. Xatırladaq ki, bir qrup Azərbaycan jurnalisti istintaqın "tapa bilmədiyi" həmin şəxslərlə Tiflis şəhərində asanlıqla görüşə bilmişdilər.

Məhz bu qətlin üstünün açılmaması, təşkilatçılarının isə cəzalandırılmaması faktı Azərbaycanda söz azadlığı anlayışının özünün və azad jurnalistikanın məhv edilməsində önəmli rol oynadı. Araşdırmaçılar əmindirlər ki, Elmar Hüseynovun qətli ilə Azərbaycanda mətbuata görünməmiş təzyiq dövrü başladı. Bunun nəticəsidir ki, bu gün həbsxanalarda olan jurnalistlərin sayı az deyil.

Rəsmi izahatlara baxmayaraq, hələ də bir neçə sual cavabsız qalır. Görəsən Azərbaycanın hüquq-mühafizə orqanları gürcüstanlı həmkarlarına qətldə adları çəkilən bu iki şəxslə bağlı tutarlı faktlar təqdim ediblərmi? Əgər təqdim ediblərsə, onların Gürcüstan ərazisində həbsləri niyə təmin edilmir? Bu sualların açıq qalması onu deməyə əsas verir ki, Elmar Hüseynovun qətli siyasi sifariş ola bilərdi. İstintaqın indiyə qədər bir nəticəyə gəlməməsinin səbəblərini də elə bu siyasətdə axtarmaq lazım gəlir.

Təəssüf ki, "Elmar Hüseynovun qətlinin sifarişçisi kimdir" sualına cavab tapılmadıqca, istintaqın 10 il uzanmasının səbəbini də anlaya bilməyəcəyik.

İstənilən halda Elmarın qətli siyasi qətldir. Odur ki, qətlin üstünün açılması çoxlarına sərf etmir. Qətlin üstünün açılması üçün siyasi iradə lazım gəlir. Üstəlik, ölkədə ictimai fikir tamamilə məhv edildiyindən belə bir iradə də mövcud deyil.

Elmarın qətli Azərbaycan üçün bir ləkə olaraq qalır. Bu ləkədən təmizlənmək üçün qətlin icraçılarının adını çəkmək kifayət etmir. Sifarişçilər həbs olunmayana qədər bu ləkə qalacaq. 10 il ərzində bunu etmək mümkün olmadı. Daha 10 il gözləmək isə ağlasığmazdır. Qətlin sifarişçiləri və icraçılarının ömrü daimi deyil. Onların dünyasını dəyişməsi ilə sirr dolu qətl də dəfn edilə bilər...

**❑ Azər RƏŞİDOĞLU**



# Neftin qiymətinin 30 dollar olacağı iddia edilir

## Səbəb kimi neft anbarlarının dolması göstərilir, qiymətin 2019-cu ilədək 70 dollara qədər olacağı da ehtimal olunur

**Nyu-York və London birjasında neft fyuçerslərinin qiyməti ucuzlaşıb. Amerikanın yüngül WTI markalı neftinin fyuçers qiyməti Nyu-Yorkun NYMEX birjasında 0,45 dollara düşüb. Bununla da onun qiyməti 1 barelə 49,31 dollar səviyyəsinə enib. Şimal dənizindən olan Brent markalı neftin fyuçerslərinin qiyməti isə Londonun ICE birjasında 0,51 dollar enib. Bununla da onun qiyməti 1 barelə 62,07 dollar təşkil edib.**

Neftin qiyməti ilə bağlı proqnozlar fərqli olsa da, əksəriyyəti nikbin deyil. İraqın neft naziri Adil Abdil Mehdi isə dünya miqyasında neft bazarının sağalma mərhələsinə girdiyini söyləyib və əmtəənin barelinin qiymətinin 65 dollara qalxacağını proqnozlaşdırıb. Bağdadda keçirilən bir konfransda çıxış edən Mehdi "Daha əvvəlki səviyyələrə qayıdacağını düşünmürəm, amma neftin barelinin 64-65 dollara qalxacağını görürəm",- deyib. Ümumilikdə neftin dünya qiyməti ilə bağlı proqnozlar əməlli-başlı təşvişə səbəb olur. Yaxın həftələrdə Brent və WTI markalı neftin 30 dollara qədər ucuzlaşacağı barədə də xəbər yayılıb. Səbəb kimi də neft anbarlarının dolması göstərilir. Belə bir proqnozla "Bank of America"nın ekspertləri çıxış edib. Bankın rəhbər şəxslərindən olan Fransisko Blanş qeyd edib ki, gündəlik tələbat təxminən 1,4 milyon bareldir. Onun sözlərinə görə, anbarlarda yer dolsa, bu dərhal qiymətə təsir edəcək.

Amerikanın Neft İnstitutunun məlumatına görə, ABŞ-ın neft ehtiyatları son bir həftədə 8,9 milyon barel artaraq 437 milyona çatıb. Qeyd edək ki, neftin qiyməti ötən ilin yayından bəri 50 faiz aşağı düşüb. Bu, son 20 ildə ən uzunmüddətli qiymət enişidir. Səbəb olaraq göstərilir ki, ABŞ-ın şist neftinin istehsalı çoxalıb və Liviya nefti bazarlara qayıdıb, təchizat artıb, Çin və Avropa iqtisadiyyatlarında yavaşıma tələbatı artırıb. Həmçinin ABŞ dollarının güclənməsi neft istehsalını bahalı edib. Ekspertlərin fikrincə, ABŞ-da şist sənayesinin çiçəklənməsi neft qiymətlərindəki eniş bir xeyli müddət davam edəcək.

**"Boston Consulting" qrupu direktorunun müavini Philip Vhittaker bildirib ki, belə vaxtlarda adətən OPEC- əsas qlobal neft istehsalçılarının birliyi, istehsalı azaldar və bununla da neftin qiymətlərini sabitləşdirməyə çarə tapardı:** "OPEC bunu əvvəllər çox edib, ona görə də bazarlar gözləyirdi ki, OPEC yenə də müdaxilə edəcək. Amma bu dəfə etmədi. OPEC indi dünya neftinin 30 faizini təmin edir. Eyni zamanda Səudiyyə, rəqibləri çiçəkləndiyi bir vaxtda bazarda payını qurban verməyə hazır deyil. O yaxşı bilir ki, növbəti on ilin ən azı yarısını ən aşağı neft qiymətləri ilə keçirə bilər. Ona görə də indi çəkilib bir kənarda durub".

Onun sözlərinə görə, OPEC neftin qiymətini süni şəkildə qaldırmasa və qlobal iqtisadiyyatın artımı ləngiməyə davam etsə, neftin qiyməti də gələn illər ərzində bir barel üçün 100 dollardan yuxarı qalxmayacaq. Fyuçers - neft üzrə gələcək alış-veriş müqavilələri - bazarları göstərir ki, neftin qiyməti 2019-cu ilədək 70 dollara qalxacaq. Bəzi ekspertlər hesab edir ki, neftin qiyməti gələn il 40-80 dollar arasında olacaq. Belə qiymətlərlə bir çox nəhəng neft quyuları da sərfəsiz olur. Həmçinin bildirilir ki, ucuz neft qiymətlərinin enerji sənayesi daxilində birbaşa təsiri geniş yayılan və dərindir: qiymətlər düşür, istehsal azalır, təchizat azalır, qiymətlər qalxır...

❑ **RÖYA**

# Azərbaycanın "Nemtsov"u kim ola bilər?

**Rusiyanın məşhur müxalifət lideri Boris Nemtsovun qətlə yetirilməsi Rusiyada yeni və təhlükəli dönəmin başlanması kimi də şərh edilməkdədir. O da məlumdur ki, Rusiyada olan siyasi hadisələr adətən Azərbaycanda və digər MDB respublikalarında da bu və ya digər formada təkrarlanır. Bir sıra siyasi təhlilçilər hesab edir ki, Nemtsovun öldürülməsi Rusiya ilə yanaşı digər bir sıra MDB respublikalarına da siqnal kimi qəbul edilə bilər. Ölkələrin daxilində qarışıqlıq yaratmaq üçün siyasi qətllərdən istifadə olunması, buna cəhdlər edilməsi ilk dəfə deyil. Bəs Nemtsovun qətli postsovet ölkələrində siyasi opponentlərə qarşı sui-qəsd metodunun gündəmə gəlməsi üçün stimul ola bilərmi?**

**Milli təhlükəsizlik nazirinin sabiq birinci müavini, Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər** bildirdi ki, Azərbaycan hələ də geopolitik baxımından postsovet məkanına daxildir və bu məkanın metropolyası Moskvadır. Təbii ki, Rusiyada baş verən hadisələr bu və ya başqa şəkildə bütün MDB respublikalarına təsir edir. Xüsusən də nəzərə almaq lazımdır ki, Moskva MDB məkanını öz həyati maraq sahəsi, təsir sferası hesab edir: "Ona görə də hərbi qüvvələrdən istifadə etməkdən belə çəkinmir. Təbii ki, siyasi qətllərdən heç bir keçmiş sovet respublikası, o cümlədən Azərbaycan da sığortalanmayıb. Xüsusən nəzərə alsaq ki, MDB ölkələrində Rusiyanın xüsusi xidmət orqanları xüsusi aktivlik göstərir və öz dilləri ilə desək, Qərbin "beşinci kolon"una qarşı, məxməri inqilab hazırlayanlara, demokratik dairələrə qarşı xüsusi plan əsasında iş aparır. Bu baxımdan Azərbaycanda da təbii ki, ictimai-siyasi sabitliyin pozulması halında bundan həm daxildə, həm də xaricdə maraqlı qüvvələr istifadə edə bilərlər. Adətən bir qayda olaraq ya ölkədə ictimai-siyasi sabitliyi pozmaq üçün siyasi qətl hadisələri törədilir və yaxud da müxalif hərəkatı boğmaq, ictimaiyyətdə qorxu yaratmaq üçün törədilir.

Zaman keçdikcə, Rusiyada gərginlik daha da artacaq və bu cür dəhşətli hadisələr son olmaya bilər. Bunlar gözlənilləndir. Təbii ki, bu qətlin sifarişçisi və icraçıları tapılarsa bundan sonra daha dəqiq söyləmək olar ki, bu, Putin rejiminə qarşı atılan addımdır, yoxsa Putin rejiminin özünün atdığı addımdır.

Hər iki variant təhlükəlidir. Əgər söhbət siyasi qətldən, ictimai-siyasi sabitliyin pozulmasından gedirsə, hər iki variant təhlükəlidir. Bu cinayəti rejim özü edibsə, bu o deməkdir ki, rejim açıq şəkildə əlini qana bulayıbsa, irəlidə daha böyük qan olacaq. Əgər bu qətli Putinə qarşı olan xarici qüvvələr törədibsə, deməli, onların Putin rejimini çökdürmək niyyəti çox ciddidir və bu rejimin müqaviməti ilə üzləşəcək və bu halda da böyük toqquşmalar, böyük qan görünür".

**S.Əkbər "Azərbaycanın Nemtsovu kim ola bilər" sualına belə cavab verdi:** "Mən



**Sülhəddin Əkbər:** "Mənim cavabım cəmiyyətdə, xüsusən də ictimai-siyasi dairələrdə qorxu hissinin yayılmasına gətirib çıxara bilər"



**Taliyət Əliyev:** "Nemtsov Azərbaycanda üzdə olan müxalifət liderlərinin heç biri qədər ağır siyasi mübarizə yolu keçməyib"

belə hipoteik suallara birmənalı cavab vermək istəməzdim. Mənim cavabım cəmiyyətdə, xüsusən də ictimai-siyasi dairələrdə qorxu hissinin yayılmasına gətirib çıxara bilər. Mən məsələnin belə konkretləşdirilməsinin tərəfdarı deyiləm. Sadəcə, onu deyə bilərəm ki, Azərbaycan demokratik müxalifətinin illərdir hakimiyyəti dialoqa çağırmasının, məsələlərin dinc demokratik yolla, seçki yolu ilə həllinin nə qədər doğru yol olduğu Rusiyada baş verən proseslərlə bir daha təsdiqlənir. Rusiyada baş verən hadisədən Azərbaycanın hakimiyyəti də, müxalifəti də, cəmiyyəti də ciddi nəticələr çıxarmalıdır. Biz ölkəmizdə sarsıntılar istəmiriksə, proseslərin küçələrdə həllini istəmiriksə, proseslərin ağrısız və qansız ötüşməyini istəyiriksə, bu, ancaq hakimiyyətin müxalifətlə, vətəndaş cəmiyyəti ilə geniş dialoqundan, milli məsələlərdə əməkdaşlığından keçir. Əks halda, postsovet məkanının bir parçası olan Azərbaycanda da arzuedilməz proseslər qaçılmaz olacaq".

**KXCP sədri Mirmahmud Mirəlioğlu isə bildirdi ki, Azərbaycanda baş verən qətllər nəinki Rusiyada, keçmiş SSRİ-nin heç bir ölkəsində baş verməyib:** "Son 20 ildə Azərbaycanda bir çox tanınmış insan qətlə yetirildi ki, onların da arasında Sovet İttifaqı Qəhrəmanı, akademiklər, millət vəkilləri, dövlət rəsmiləri və s. insanlar olub. Azərbaycanda şəhərlərin mərkəzində belə bu cür qətllər reallaşıb. Hesab edirəm ki, indi bu olayların Azərbaycanda gündəmə gəlməsindən ehtiyat etmək əbəsdir. Çünki Azərbaycan artıq bu yolları keçib. Azərbaycanda hətta iki prezidentin köməkçisi işləyən şəxslər belə qətlə yetirilib, sıradan çıxarılıb. Bu baxımdan hesab edirəm ki, Nemtsovun qətlinin Azərbaycan üçün hansısa mənfi nəticələrə səbəb olacağı ehtimalı əsassızdır".

**Bəs Azərbaycanda hazırda "milli Nemtsov" hesab ediləcək dünya səviyyəli siyasətçi varmı? Moderator.az saytına bu barədə açıqlama verən ADP sədrinin müavini Taliyət Əliyev deyib ki, əslində bu gün Azərbaycan müxalifətində olan liderlərin əksəriyyəti əksər parametrlər üzrə Nemtsovdan üstündür:** "Nemtsov Azərbaycanda üzdə olan müxalifət liderlərinin heç biri qədər ağır siyasi mübarizə yolu keçməyib. Nemtsov son 7-8 il ərzində ölkəsində demokratiya uğrunda prinsipial mübarizə aparmağa başlamışdı. 2008-ci ilə qədər o, yüksək hakimiyyət postlarında və biznes strukturlarında təmsil olunub. Kifayət qədər maddi baxımdan təmin olunmuş, demək olar ki, bir oliqarx idi. Onunla Azərbaycan müxalifət liderlərinin həyat səviyyəsi arasında yerlə-göy arasında fərq var. Əgər yüksək təminatlı həyat yaşayan Nemtsovun siyasi fəaliyyəti Obamanı heyran edibsə, onda gərək Azərbaycanda olan müxalifət liderlərinin əksəriyyəti canlı əfsanə hesab edilsin. Nemtsov siyasi mübarizə tarixində elə böyük məhrumiyyətlərə məruz qalmayıb. Amma Azərbaycan müxalifət liderlərinin əksəriyyəti 20 ildən artıq ən ağır maddi və siyasi şərtlər altında prinsipial mübarizə aparır, bu yolda hər cür məhrumiyyətlərə - təqiblərə, təzyiqlərə, həbslərə, işgəncələrə məruz qalır, lakin mübarizələrini bu gün də davam etdirirlər. Sözün həqiqi mənasında onda gərək biz liderlərimizin qədrini bilməliyik, onlar əsl demokratiya mücahidləridir".

❑ **Etibar SEYİDAĞA**



# İran nümayəndə heyəti “Khazar İslands” layihəsi ilə tanış olub

**Azərbaycanda səfərdə olan İran İslam Respublikasının Ənzəli Azad Ticarət və Sənaye Zonası Təşkilatının İdarə Heyətinin sədri Rza Mənsurun başçılıq etdiyi, təşkilatın idarə heyətinin üzvü Məhəmməd Cəfər Əlizadə, təşkilatın iqtisadiyyat və sərmayə məsələləri üzrə müavini Seyyid İbrahim Səqayi, təşkilatın sahibkarlar və sərmayədarlar birliyinin sədri Əsgər Amani, təşkilatın ümumi və beynəlxalq əlaqələr şöbəsinin rəisi Emin Üfiqi, təşkilatın ali müşaviri Kiyumers Fətullah Kermanşahi, Gilan əyalətinin Limanlar və Dənizçilik Təşkilatının sədri Seyid Əli Nəimi, həmin əyalətin Baş Gömrük İdarəsinin rəisi Məhəmməd Şahbazifər, Xəzər Dənizi Gəmiçiliyi Təşkilatının İdarə Heyətinin üzvü və icraçı direktoru Ələkbər Gönci və CASPİAN şirkətinin icraçı direktoru Bəhram Nəzərinin daxil olduğu nümayəndə heyəti Avesta Konsernin həyata keçirdiyi “Khazar İslands” layihəsi ilə tanış olmaq üçün şəhər-kompleksin salındığı ərazidə olublar.**



Qonaqları qarşılayan Avesta Konsernin prezidenti Hacı İbrahim Nehrəmli onları səmimiyyətlə salamlayıb və başçılıq etdiyi şirkətin həyata keçirdiyi bu nəhəng layihə haqqında ətraflı məlumat verib. “Khazar İslands” layihəsi çərçivəsində həyata keçirilən işlərlə yaxından tanış olan qonaqlar görülən işləri yüksək qiymətləndiriblər. Avesta Konsernin prezidenti ilə danışıqlarda İran nümayəndə heyətinin üzvləri əməkdaşlıq məsələlərini də müzakirə ediblər. İran şirkətləri əməkdaşlığa hazır olduqlarını deyən Hacı İbrahim Nehrəmli iki ölkə arasındakı münasibətlərin yüksək səviyyədə olmasını İran və Azərbaycan şirkətləri arasında əməkdaşlığa gözəl təməl hesab etdiyini qeyd edib.



“Khazar İslands” layihəsinin isə əməkdaşlıq üçün çoxsaylı imkanlar yaratdığını vurğulayan Avesta Konsernin prezidenti iranlı sərmayədarlar, inşaat şirkətləri və tikinti malları istehsalçıları ilə əlaqələrin yaradılmasının tam zamanı olduğunu bildirib. İran nümayəndə heyətinin üzvləri də Azərbaycanın sürətlə inkişaf etdiyini və artıq dünya miqyaslı layihələr həyata keçirməsini məmnuniyyət hissi ilə müşahidə etdiklərini qeyd edərək, “Khazar İslands” kimi nəhəng layihəni həyata keçirdiyinə görə iş adamı Hacı İbrahim Nehrəmlini təbrik ediblər. İran nümayəndə heyətinin “Khazar İslands” layihəsinin həyata keçirildiyi şəhər-kompleks ərazisinə səfərdə İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin İqtisadiyyat və Ticarət Şöbələrinin rəhbərləri də müşayiət edib.

❑ **Xəbər xidməti**



# Qubad İbadoğlu ölkədən beş aylıq getdi

**Müsavat başqanlığına keçmiş namizəd, ADR Hərəkatının sədri Qubad İbadoğlu ABŞ-da səfərdədir. Bu barədə o, sosial şəbəkədə statusunda bildirib. Q.İbadoğlu qeyd edib ki, ilk dəfə olaraq ADR sədri kimi müzakirələrdə iştirak edəcək: “Yenidən ABŞ-a qayıtmaq üçün səfərə çıxdım. Hazırda İstanbulda Atatürk hava limanında Vaşinqtona olan 12 saatlıq uçuşumu gözləyirəm.**

## ADR sədrinin bir layihə çərçivəsində ABŞ-da olacağı bildirilir, proqram Dövlət Departamenti tərəfindən dəstəklənir, yeni təsis olunan qurum Vurğun Əyyuba tapşırılıb...

Sabahdan başlayan işgüzar görüşlərim əvvəlkilərdən xeyli fərqlənir. Əvvəla, ilk dəfədir ki, Azərbaycan Demokratiya və Rifah (ADR) Hərəkatının sədri statusu ilə müzakirələrə qoşulacam. İkincisi, səfər proqramım şəffafliq deyil, daha çox siyasi məsələlər üzərində qurulacaq. ABŞ Konqresi tərəfindən əsası qoyulan bu proqram Dövlət Departamenti və Demokratiya Naminə Fond tərəfindən dəstəklənir”.

**Teleqraf.com isə xəbər yayıb ki, Qubad İbadoğlu Azərbaycanı beş aylıq tərk edib:** “Hərəkatın sədri qarşıdakı beş ayda Azərbaycanda olmayacaq. Məhz bu səbəbdən də ADR İdarə Heyətinin sonuncu toplantısında sədrin birinci müavini postu təsis edilib və Vurğun Əyyub bu posta təyin edilib. Məqsəd isə Qubad İbadoğlu olmadığı bu müddətdə hərəkatı Vurğun Əyyubun idarə etməsini təmin etməkdir. Qeyd edək ki, Qubad İbadoğlunun ölkədə olmadığı müddətdə hərəkatı Vurğun Əyyub idarə edəcək. Deməк, V.Əyyub yaxın beş ayda Müsavat rəhbərliyi ilə açıq konfrontasiyaya getməli olacaq. Çünki bu iki qurumun rəhbərliyi arasında neçə müddətdir ki, qarşılıqlı ittihamlar hökm sürür. Əldə etdiyimiz xəbərə görə, ADR Hərəkatının sədri Bakıya avqustda qayıdacaq”.



Qubad İbadoğlu

**Müsavat Partiyası MNTK-nın sədri Sevinc Hüseynova isə keçmiş partiyadaşının ABŞ səfərinə sosial şəbəkə vasitəsilə bu cür reaksiya verib:** “Amerika fondları ilə işlədiyinə görə Xədicə İsmayıl Kürdəxanıda ulduzlara kameradan baxır, bu adam təyyarədən düşmür. Deyir, bu səfər şəffaflıqdan yox, siyasətdən danışacaq. İndi də inandıracaq ki, bizdə demokratiya elə şəffaflıq qədərdi”.

**ADR təmsilçilərindən Səxavət Əlisoy isə musavat.com-a açıqlamasında Q.İbadoğlunun səfərinin beş aylıq olduğunu təsdiqləyib.** “Doğrudur. Yaxşı proqram var, beş aylıq olacaq. Qubad İbadoğlu bir proqram çərçivəsində beş ay ABŞ-da olacaq. Onun ölkədə olmadığı müddətdə hərəkata birinci müavin Vurğun Əyyub rəhbərlik edəcək, o, görəvləndirilib”.

**O, həmçinin qeyd edib ki, yaxın günlərdə ADR bu il keçiriləcək parlament seçkilərində iştirak edib-etməmək barədə qərar verəcək. Qərar müsbət olacaqsa, Q.İbadoğlu ölkədə olmadan da hazırlıqlar aparılacaq:** “Biz bununla bağlı İdarə Heyətində müzakirələr aparırıq. ADR hərəkatında qərarlar kollegial şəkildə verilir. Kiminsə, bir nəfərin düşüncəsi ilə təşkilat öz strategiyasını formalaşdırmır. Yaxın günlərdə ADR parlament seçkilərində iştirak edib-etməmək barədə qərar verəcək. Seçkidə iştirak qərarı veriləcəksə, Qubad İbadoğlu burada olmadan da hazırlaşa bilərik”.

**S.Əlisoy qeyd edib ki, Q.İbadoğlunun ölkədən getməsi müvəqqətidir və həbs təhlükəsi ilə bağlı deyil:** “Bizim keçmiş partiya dostlarımız istəyir ki, Qubad bəy həbs edilsin, bunun arzusundadırlar”. **O, S.Hüseynovanın dediklərinə isə münasibət bildirmək istəməyib:** “”Təndirbaşı qeybət" söhbətlərinə münasibət bildirmək istəmirəm. Ciddi adamlar, ciddi fikirlər olsa, münasibət bildirmək olar. Ən yaxşısı odur ki, qeybət edənlər öz partiyasının durumu ilə maraqlansınlar". Q.İbadoğlunun özü ilə isə əlaqə saxlamaq mümkün olmayıb.

❑ **Röya RƏFİYEVA**

# Razi Nurullayev Milli Şuradan çıxarılacağını gözləyir

## “Milli Şuraya daxil olan hər bir insan xüsusi bir filtrdən keçirilir”

**Bir həftə öncə AXCP-dən istefa verən Razi Nurullayevin Qərb ölkələrinin səfirliklərinin gözündən salınması üçün adı çəkilən partiyanın rəhbərliyinə daxil olan bir sıra şəxslər tərəfindən təbliğat aparılır. Təbliğatın ana xətti ondan ibarətdir ki, həmişə qərbyönümlü mövqeyi ilə seçilən R.Nurullayev hakimiyyət dairələrinin təsiri altında Qərbə asi çıxıb və artıq Moskva meylli xəttə üstünlük verir.**



Razi Nurullayev

Razi Nurullayev isə bu təbliğatın böhtan olduğunu bildirir. Bu barədə dünən “Yeni Müsavat”a açıqlamasında R.Nurullayev dedi ki, səfirliklərdə görüşləri davam edəcək, Böyük Britaniya və ABŞ səfirliyi ilə görüşləri olacaq: “Mənim mətbuat konfransımdan sonra belə bir fikir onlarda yarana bilərdi ki, guya mən onların üzərinə haqsız olaraq gedirəm. Ona görə də mən sonradan açıqlama yaydım ki, mən hətta yalan detektorundan da keçməyə hazıram. Yəni mənim heç bir halda nə ABŞ, nə Britaniya səfirliyini günahlandırmaq fikrim olmayıb. Mətbuat konfransında da demişdim ki, onlarla hər zaman görüşüm olub və onların hər hansı məlumatını heç zaman ortaya çıxarmamışam, onlara qarşı heç bir fəaliyyətdə bulunmamışam. Əli Kərimli mənə həmin sözləri deyəndə də mənim cavabım o oldu ki, deyilənlərə inanmıram. Bunu səfirliklərə yazılı müraciətimdə də qeyd etmişəm. İkincisi, AXCP-nin rəhbərliyinə daxil olan şəxslərin də mənim üzərimə gəlməsi tanış ssenaridir. Heç bir ləkəli fəaliyyətdən uzaq durmamağa həmişə üstünlük veriblər. Bu oyunların çoxu AXCP-nin mərkəzindən qaynaqlanır. Bütün oyunlar orada qurulur. Çox təhlükəli tendensiyadır. Mən heç zaman moskvapərəst ola bilmərəm. Hər zaman qərbyönümlü olmuşam, indi də bu mövqedəyəm. Azərbaycanın işıqlı gələcəyini, müstəqilliyinin təminatını Qərbə inteqrasiyada görürəm. Bu mənim qəti mövqeyimdir”.

**Qeyd edək ki, hazırda Razi Nurullayev Milli Şuranın üzvüdür. Onun AXCP-nin təzyiqi ilə Milli Şuradan çıxarılması gözlənilməndirmi?**

**R.Nurullayev hesab edir ki, belə bir addımın atılması gözlənilməndir:** “Mən heç bir zaman Azərbaycanda yaradılan koalisiyaların, birliklərin müstəqil və neytral olduğu düşüncəsində olmamışam. Bu gün də beləyəm. Milli Şurada da Əli Kərimlinin təsir imkanları mövcuddur. Milli Şuraya daxil olan hər bir insan xüsusi bir filtrdən keçirilir, əvvəlcədən söhbət aparılır, məqamlar razılaşdırılır və bundan sonra qəbul həyata keçirilir. Müstəqil fikirli insanları, Əli Kərimlinin siyasətini tənqid edən insanları isə qəbul etmirlər. Orada əvvəldən gəlmiş müstəqil fikirli ziyalı insanlar da var. Amma o insanlar hələlik susmağı üstün tuturlar. Onlara mən haqq qazandırıram. Ona görə ki, bu gün onlar hər hansı fikir bildirsələr, Əli Kərimlinin ətrafı tərəfindən vətən xaini elan olunacaqlar”.

**R.Nurullayev onu dedi ki, şəxsən özünün Milli Şuradan istefa vermək fikri yoxdur:** “Milli Şurada o insanlar təmsil olunmalıdır ki, müstəqil fikir söyləyə bilirlər. Əli Kərimlinin inhisarında deyillər”.

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 47 (6075) 3 mart 2015



# Hakimiyyətlərin işi çətinə düşəndə...

Hüseynbala SƏLİMOV

**Hakimiyyətlərin işi çətinə düşəndə ilk növbədə rəqiblərini yada salırlar. Bəli, insanlar bir çox hallarda siyasətçilərə qarşı biganə, hətta bir az da qəddar olurlar. Onları bütün bəlaların baiskarı hesab etdiklərindən münasibətləri də elə buna adekvat olur...**

Amma rusiyalı siyasətçi Boris Nemtsovun qətlə yetirildiyi yerdə qalanmış gül dəstələrini seyr edəndə görürsən ki, yox, hətta siyasətçiləri belə ehtiramla yad edənlər tapılır...

İlk dəfə belə bir müdhiş qətl jurnalist Vlad Listyevlə bağlı baş vermişdi. Amma sonradan hər şey kimi qətllər də adiləşdi - səhv etmiriksə, yaddaşımız bizi aldatmırsa, bundan sonra daha iki gurultulu jurnalist qətlləri baş verdi...

Təbii ki, Boris Nemtsov da sıradan bir adam deyildi və hissiyyatımız bizə deyir ki, böyük ehtimalla bu qətlin də üstü açılmayacaq, halbuki artıq onun izinə düşmək üçün müəyyən detallar var, ən azı siyasətçiyə atəş açılan maşının görüntüsü mövcuddur...

Siyasətçiləri niyə öldürürlər? Çox maraqlıdır ki, belə qətllər zamanı versiyaların sırasında ən axırıncı yerdə siyasi motivlər gəlir, daha çox biznes və şəxsi motivlər önə keçir...

Amma qətlin siyasi motiv daşımasına işarə edən çoxlu detallar var...

Nemtsov prezident Vladimir Putinnin əsas siyasi opponentlərindən biri idi...

Deyilənə görə, qətlə yetirildiyi vaxtdan təxminən bir saat əvvəl radioların birinə müsahibə də vermişdi və həmin müsahibədə də hakimiyyəti sərt tənqid etmişdi...

Qətlin səhəri günü Nemtsovun təşəbbüsü ilə böyük etiraz nümayişi keçirilməli idi və qətl baş verəndən sonra onu anım yürüşü ilə əvəz etdilər - bu, təbii ki, belə də olmalı idi, bunu həm mərhumun xatirəsi, həm də qətli siyasiləşdirmək kimi çağırışlar tələb edirdi...

Qətl Qırmızı Meydanda baş vermişdi. Bura isə Moskvanın ən çox mühafizə olunan yerlərindən biridir. Çox maraqlıdır ki, qətl üçün məhz bu yer seçilibmiş... Hiss olunur ki, qatillər Nemtsovun gündəlik planlarından, hətta hərəkət marşrutundan yaxşı məlumatlı imişlər...

Nemtsovu səciyyələndirən cəhətlərdən biri də bu idi ki, bəzi müxalifətçilərdən fərqli olaraq onun bilavasitə hakimiyyət təcrübəsi vardı, onu hakimiyyət "küçədən gələn" adam kimi təqdim edə bilmirdi...

Bir sözlə, Nemtsovu hakimiyyət dairələrinin sevməməsi üçün kifayət qədər əsaslar vardı; o, Vladimir Putini müharibə partiyasının lideri adlandırır, onun siyasətini kəskin tənqid edir, Rusiyada Qərbin dəstək verdiyi əsas siyasətçilərdən biri hesab edilirdi...

Başqa vaxt bu detallar əhəmiyyətli olmaya da bilərdi. Amma V.Putinin ölkəni sözün əsl mənasında siyasi dalana gətirib çıxardığı halda bunların hər biri önəm kəsb etmək gücündə idi - bəzən, sadəcə, nüfuza və siyasi təcrübəyə sahibi olmaq yetər ki, rəqib düşərgənin "qara list"inə düşəsən...

İndi hamı üçün bir sual maraq kəsb edir: proseslər bundan sonra necə inkişaf edəcək?

Açığını demək lazımdır ki, V.Putin Rusiyada vəziyyətə kifayət qədər nəzarət edə bilir. Ona görə də düşünmürük ki, hansısa qlobal və dramatik bir hadisə baş versin - bəzən hətta izdihamlı tədbirlər və o cümlədən də izdihamlı dəfnlər təəssüf ki, müxalifətin bilavasitə gücünə dəlalət etmir...

Qətllər, ümumiyyətlə, Rusiyanın tarixində mühüm yer tutur. Rusiya tarixçiləri hətta sovet dövründən əvvəl baş vermiş qətllərə belə mistik don geyindirməyi sevirlər...

Sovet dövründə ən çox yadda qalan təbii ki, Sergey Kirovun qətli olub və onun opponenti İosif Stalin bu qətldən çox özünəməxsus şəkildə faydalanmışdı - qətl qırmızı terrorun başlanmasına bəraət olmuşdu. İndi güman etmirik ki, Putin Nemtsovun qətlindən repressiyalara müraciət etmək üçün bəhanə kimi istifadə etsin...

Yox, repressiya olmayacaq. Hərçənd ki, bu qətl dönüş nöqtəsi də ola bilər və Putinin vəziyyətini kifayət qədər ağırlaşdırmaq iqtidarında olar...

İndilik daha çox bunu demək olar ki, Rusiya ətrafındakı soyuq qəfəs bir az da soyuyacaq. Bunu fərz etmək üçün heç də böyük siyasi təcrübəyə malik olmaq lazım deyil...

Ən başlıcası isə bilirsiniz nədir? Rusiya özünün islahatçılarına həmişə ögey övladları kimi baxıb. Nemtsov da bir siyasi nəslin təmsilçisi idi - neo-imperializmdən uzaq, praqmatik, Rusiyanın yerini Avropada görən, öyrənmək və görüb-götürmək qabiliyyəti olan bir adam idi. Belələrini isə Rusiyada heç sevmirlər...

## Ziya Məmmədovun qardaşı oğlu keçmiş gəmi bosunun "çatısı" altında

**Milli Məclisin deputatı Elton Məmmədovun oğlu, nəqliyyat naziri Ziya Məmmədovun qardaşı oğlu Aynar ötən həftə nəhayət ki, "Glass Plaza" əyləncə və ticarət mərkəzində kafe-restoranının açılışını etdi. Aynar Məmmədov belə bir kafe açmaq istəyini hələ ötən ilin noyabrında vəd etmişdi. O, sosial şəbəkədəki səhifəsində məlumat vermişdi ki, belə bir kafe-restoran açacaq.**

**Qeyd edək ki, bu o zamanlar idi ki, avtoxuliqanlıq və sosial şəbəkələrdə paylaşdığı fotolarına görə Aynar Məmmədov ciddi qınağa tuş gəlmişdi. Bu da səbəbsiz deyildi. Çünki nazirin qardaşı oğlu ilə bağlı qalmaqal prezidentin ötən ilin fevralın 5-də keçirdiyi müşavirədən sonra-fevral ayının 13-də ortaya çıxmışdı. Sözügedən müşavirədə prezident harın məmurlar və onların övladlarını sərt tənqid etmişdi.**



# Məmmədovların rəqiblərinə "kodlu" barmaq işarəsi

### Onların çöküşünü gözləyənlərlə Aynar Məmmədovun əl işarəsinin nə əlaqəsi?; Deputat oğlunun kafe-restoranın yerləşdiyi "Glass Plaza" ticarət mərkəzi bir vaxtlar nəqliyyat naziri ilə yola getməyən Xəzər Dəniz Gəmiçilik İdarəsinin sabiq rəisi Aydın Bəşirova məxsusdur

Nazirin qardaşı oğlunun dəbdəbəli maşınlarının fotosunun yayılması Məmmədovları hədəfə çıxarmışdı. Mediada da Məmmədovların tezliklə hakimiyyətlə vidalaşacağı barədə xəbərlər dolaşırdı.

Deputat isə oğlunun dəbdəbəli həyat tərzinə haqq qazandıraraq demişdi ki, sovet İttifaqı dövründən bizneslə məşğul olduğu üçün imkanlı şəxs sayılır. "Mən indi müasir və inkişaf etmiş Azərbaycanda öz oğluma normal maşın ala bilmərəm? Mənim oğlumun avtomobilinin dəyəri 100 min manatdan aşağıdır. Azərbaycan qanunları bahalı avtomobillərin ölkəyə gətirilməsinə də imkan verir. Heç bir qanunda buna məhdudiyyət yoxdur. Camaat 100 milyona təyyarə alıb gətirir. Heç buna məhdudiyyət qoyulmur. Ancaq hansısa xarici ölkədə bahalı maşınla foto çəkilib, bunu götürüb yazırlar ki, filankəsin 500 minlik maşını var və sairə" deyən deputat Məmmədovların hədəfdə olduğunu etiraf etmişdi: "Burada söhbət oğlumdan deyil, Elton və Ziya Məmmədovlardan gedir. Bizi qaralamaq istəyirlər. Ancaq Allah da bilir ki, mən və qardaşım dövlətçiliyə və millətə xidmət edən adamlarıq".

**Elə həmin ərəfədə Aynar Məmmədovun adı daha bir qalmaqalda - jurnalistin döyülməsində əsas fiqurat kimi hallanmağa başladı. Bu dəfə A.Məmmədovun əmisi, nəqliyyat naziri Ziya Məmmədov danışdı:** "Mən bu məsələ gündəmə gələndə Elton Məmmədovla əlaqə saxladım. Onunla söhbət zamanı bildirdi ki, Aynarın bu məsələdə heç bir təqsiri yoxdur. Yəqin ki, bizi istəməyən qüvvələr aranı qarışdırırlar. Ümumiyyətlə, mən bu məsələlərə qarışmıram. Bir daha deyirəm ki, mən dövlətə və dövlətçiliyə, eyni zamanda cənab prezidentə xidmət edirəm", deyə nazir vurğulamışdı. Məmmədovların təkzibinə baxmayaraq, DİN Aynarın istintaqa çağırılaraq ifadəsi alındığını təsdiq etdi. Amma sonda nəticə olmadı.

Təbii ki, belə bir qalmaqallı şəraitdə Aynarın obyekt açması Məmmədovları yenə də diqqətə və qınağa tuş gətirəcəkdi. Onlar isə gözlədilər və deyəsən, Məmmədovlar üçün təhlükə tam sovuşduğundan yenidən güc ortaya qoydular. Kafe-restoranın açılışından yayılan fotolarda Məmmədovların diqqətçəkən bir mesajı da var. Aynar əlinin baş barmağını qaldıraraq "əla" işarəsini *(fotoya bax)* göstərir. Mümkündür ki, bu, hakimiyyət daxilində Məmmədovlara rəqib olanlara bir acıq işarəsidir. Etiraf etmək lazımdır ki, kifayət qədər maliyyə imkanlarına sahib olan Məmmədovları hakimiyyətin içərisində sevməyənlər çoxdur. Məmmədovların çöküşünü gözləyənlərə Aynar Məmmədovun bir işarəsi də yetər. Necə deyərlər, "arifə bir işarə də yetər".

A.Məmmədovun yeni obyekti haqqında daha bir ilginc məlumat da var. "Yeni Müsavat"ın məlumatına görə, Bakının Yasamal rayonunda, Süleyman Dadaşov küçəsində yerləşən "Glass Plaza" əyləncə və ticarət mərkəzi Xəzər Dəniz Gəmiçilik İdarəsinin sabiq rəisi Aydın Bəşirova məxsusdur. 2012-ci ildə birdəfəlik bağlanan məşhur "Şüşəli bazar"ın yerində tikilən ticarət mərkəzi 4 mərtəbəlidir. "Glass Plaza"nı "Arcon" MMC adlı türk inşaat şirkəti tikib.

Maraqlıdır ki, A.Bəşirovla nəqliyyat naziri arasında münasibətlərin həmişə sərin olduğu iddia olunurdu. Buna səbəb isə A.Bəşirovun birbaşa tabe olduğu Nəqliyyat Nazirliyinin kollegiya iclaslarında iştirak etməməsi göstərilirdi. A.Bəşirov işdən uzaqlaşdırılandan sonra isə bu barədə danışarkən Z.Məmmədovla dost olduğunu demişdi: "Olub ki, Ziya müəllimin iclasına mən getməmişəm, ancaq yerimə müavinimi göndərmişəm. Biz dostuq, bir yerdə işləmişik, bir əl olmuşuq", - deyərək yayılan xəbərləri təkzib etmişdi.

**Ziya Məmmədovun qardaşı oğlunun indi A.Bəşirovun "çatısı" altında kafe açması maraq doğurur...**

**❑ "Yeni Müsavat"**

# Xarici ölkə agenti olmağın cəzası...

## Müzəffər Baxışov: "Bu, xüsusilə ağır cinayətlər kateqoriyasına aid olan əməldir"

**Azərbaycanda son dövrlər siyasətçilər və ictimai xadimlər arasında bir-birini xarici ölkə agenti olmaqda ittiham etmək adi hala çevrilib. Rəqib hesab etdiyi və ya münasibəti yaxşı olmadığı şəxsi xarici ölkələrə agentlik etməkdə suçlayanlar sırasında kifayət qədər tanınmış siyasətçilər, partiya sədrləri, deputatlara rast gəlirik.**

Bəs xarici ölkə agenti olmaq Cinayət Məcəlləsində hansı maddə ilə tövsif edilir və hansı məsuliyyəti nəzərdə tutur?

Bu mövzuda danışan Hüquqi Dövlət Araşdırmaları Fondunun rəhbəri Müzəffər Baxışov bildirdi ki, Azərbaycan Respublikasının 30 dekabr 1999-cu ildə qəbul olunan Cinayət Məcəlləsinin 274-cü maddəsinə görə, Azərbaycan Respublikasının vətəndaşı xarici dövlətə agentlik edirsə, dövlət sirrini və ya digər sirləri xarici dövlətə verirsə, cinayət məsuliyyəti nəzərdə tutulur. Bu, xüsusilə ağır cinayətlər kateqoriyasına aid olan cinayətdir. Həmin cinayətə görə 20 ilə qədər azadlıqdan məhrum etmə və hətta ömürlük azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulub.

Vətəndaşı heç bir dəlil-sübut olmadığı halda xarici ölkəyə agentlik etməkdə suçlamağın hansı cəzanı nəzərdə tutmasına gəlincə, Müzəffər Baxışov dedi ki, əgər kimsə-kimisə xarici dövlətə casusluq etməkdə ittiham edirsə, bilə-bilə yalandan həmin şəxsin barəsində belə məlumatlar yayırsa, bu böhtan hesab edilir. Böhtana görə də Cinayət Məcəlləsində 147-ci maddə üzrə cinayət məsuliyyəti nəzərdə tutulur və həmin böhtana yol vermiş şəxsi 3 ilədək azadlıqdan məhrumedilmə gözləyir. Özü də bu cinayətlər xüsusi ittiham qaydasında təqib olunan cinayətlərdir. Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 37.2-ci maddəsinə görə, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 147-ci maddəsində cinayət, yeni böhtan cinayəti xüsusi ittiham qaydasında təqib olunur. Böhtana məruz qalmış şəxs xüsusi ittiham qaydasında birbaşa məhkəməyə müraciət etməlidir və onun barəsində bilə-bilə yalan məlumatlar yayan şəxsin cinayət məsuliyyətinə cəlb olunmasını tələb etməlidir. Yəni bu kateqoriyadan olan cinayətlərə birbaşa xüsusi ittiham qaydasında məhkəmələr baxırlar.



Müzəffər Baxışov

**❑ E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 47 (6075) 3 mart 2015

# Rəyasət heyətinin iclası oldu





**Martın 2-də Ümid Partiyasının Mərkəzi qərargahında partiyanın sədri, millət vəkili İqbal Ağazadənin sədrliyi ilə rəyasət heyətinin növbəti toplantısı keçirilib.**

Toplantıda ölkə və regiondakı ictimai-siyasi vəziyyət, parlament seçkiləri və seçkilərə hazırlıqla bağlı görüləcək işlər, ilkin namizədlər siyahısı, partiya təbliğatının gücləndirilməsi ilə bağlı fəaliyyət istiqamətləri və başqa məsələlər müzakirə olunub.

Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə rəyasət heyətinin üzvlərinə tapşırıq və tövsiyələrini verib.

## Xocalı köçkününün müalicəsi üçün kampaniya







**Azərbaycan Ümid Partiyasının mərkəzi qərargahında partiyanın gender bərabərliyi şöbəsinin təşkilatçılığı ilə Xocalı soyqırımının 23-cü ildönümünə həsr olunmuş dəyirmi masa keçirilib.**

Partiyanın gender bərabərliyi şöbəsinin müdiri Həcər Abbaslı Xocalı soyqırımının dünyaya tanıdılması istiqamətdə görülən işlərdən danışıb və diasporanın fəaliyyətinin qənaətbəxş olmadığını qeyd edib. Sonra fəlsəfə doktorantı Südabə Babazadə "O hələ də sağ idi..." adlı prezentasiya materiallarını təqdim edib. Tədbir iştirakçıları mövzu ətrafında müzakirə aparıblar. Xocalı soyqırımının dünyaya tanıdılması istiqamətində konkret təkliflər verilib.

Sonda tədbir iştirakçıları Xocalı köçkünü Leyla Səyadovanın sosial problemləri barədə məlumatlandırılıb və onun müalicəsi üçün xeyriyyə kampaniyasına start verilib.










## Ümid Partiyasının Xətai rayon şöbəsi toplandı

**Ümid Partiyasının mərkəzi qərargahında partiyanın Xətai rayon şöbəsinin fəallarının toplantısı keçirilib. Toplantını təşkilatın sədri Bəybala Əliyev aparıb. 2015-ci ilin parlament seçkiləri, seçkilərə hazırlıqla bağlı görüləcək işlər, qarşıda duran vəzifələr, yeni özək təşkilatlarının yaradılması və yeni üzvlərin partiyaya cəlb olunması, sosial şəbəkələrdə partiyanın təbliği istiqamətində fəaliyyətin artırılması müzakirə olunub. B. Əliyev fəallara tapşırıq və tövsiyələr verib.**

Bu səhifə Ümid Partiyası tərəfindən kirayələnmişdir

YENİ MÜSAVAT
N 47 (6075) 3 mart 2015



# Yoqurtu alıb evə gətirirlər

Zamin HACI
zaminhaci@gmail.com

**Jurnalist Elmar Hüseynovun 2 mart 2005-ci ildə yaşadığı evin kandarında vəhşicəsinə öldürülməsindən dünən 10 il keçdi. Təsadüfən həmin gün xəbər lentlərində prezidentin təzə köməkçisinin ölkəmizdəki söz azadlığı haqda açıqlaması da yayılmışdı. Əli müəllim deyirdi ki, Azərbaycanda 40 gündəlik qəzet çıxır, camaat bütün günü internetdə nə istəsə yazır. Elə həmin xəbərin böyründə jurnalist Xədicə İsmayılın məhkəmədə son sözü verilmişdi. O informasiyanın da sağ tərəfində amerikalıların "Vaşinqton Post" qəzetinin "Azərbaycanda məhkəməsiz həbs olunmaq" adlı yazısı vardı. Müəllif qeyd edirdi ki, Azərbaycanda despotizm həddini aşıb, məhkəmələr prokurorluğun nökəridir, jurnalistika məhv edilir və sairə.**

Kimə inanmalıyıq? Əlbəttə, hökumətə. Birincisi, bizim milli hökumətimizdir, müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir. Üç rəngli bayrağımızı hansısa yankilərin əlli zolaqlı, türmə paltarına oxşar bayrağının ayağına verməməliyik. Hələ ötən əsrdə Etibar müəllim *(Məmmədov - AMİP sədri)* tarixi söz demişdi: "Öz millətimin diktatoruna qurban olum, özgə millətin demokratına çurban olunca!" Nəticədə Etibar müəllim öz millətimizin diktatoruna qurban oldu, hazırda asudə yaşayır, hətta nəfəs də alır.

İkincisi, hər birimiz hardasa yaşayırıq, o mənzilin də kandarı var. Misal üçün, Elmar öldürüləndə qan-qan deyən bəzi yazarlar var idi, biri hətta rəhmətlikdən o qədər məqalə yazmışdı ki, axırda kitabını buraxdı, deyilənə görə bir dəfə jurnalistin ruhu gəlib girib bunun yuxusuna, deyib sən canın, özünə bu qədər əziyyət vermə, dünya fani dünyadır, Bibiheybət yolunda jurnalistlər üçün təzə bina tikilir, gör neynirsən. Haqq üçünə, hökumət həmin yazarın Elmar Hüseynov yolunda axıtdığı mürəkkəbi unutmadı, o binada qardaşımıza ev verdi.

İndi sən get maraqlan, gör heç o jurnalistlər binasının kandarında kiməsə ağzından güllə vurublar? Hansının uşağına aldığı yoqurt koridorda qanına bulaşıb? Heç birinin. Elmar Hüseynov öldürüləndən sonra bizdə belə hallara qəti yol verilmir. Əksinə, mətbuatın yoqurtunu, qatığını alıb verirlər. Ağartının bolluğundan indi bizdə dünyada analoqu olmayan "qatıqlama jurnalistikası" janrı da yaranıb inkişaf etmişdir.

Məhkəmələrin prokurorun nökəri olmağına gələndə, bu bizim daxili işimizdir. Bizdə hər kəs kiminsə nökəridir, cəm halında hamımız dövlətin, xalqın nökəriyik. Bu haqda ata sözümüz də var: "Nökər nədir, bekar nədir?". İndi bu amerikalılar istəyir biz bekar qalaq, avara olaq. Halbuki, bizdə işsizlik ləğv edilibdir, təkcə keçən il yeni 10 milyon iş yeri açılıbdır. İqtisadi tərəqqi o vəziyyətdədir ki, xalqın qulluqçuları - məmurlar həmin xalqın özündən min dəfə yaxşı yaşayırlar. Görün bizdə nökərə necə böyük hörmət qoyulmuşdur.

Mətbuatın inkişafı, gündəlik 40 gün çəkən qəzetçilik... üzr istəyirəm, 40 gündəlik qəzet mövzusuna *(qaqaşlar bunu dilimizə "tema" şəklində artıq salıblar, məncə də düz eləyiblər, deyilişi çətin "mövzu" sözünü dəyişməyin vaxtıdır)* qayıtmaq istərdim. Bu istiqamətdə böyük dəyişiklik vardır. Örnək üçün, mən "Molla Nəsrəddin" jurnalının 19 may, 1927-ci il sayını oxuyurdum, gördüm orda bir qəzet köşkü karikaturası var, böyründə araq satırlar, üç-dörd nəfər içib sərxoş olub köşkün qabağında ağnayıbdır, karikaturanın üstündə isə yazılıbdır: "Balacarıda (Biləcəri -Z.H.) mədəni-maarif işləri. İki mindən ziyadə türk işçisi olan Balacarıda yalnız üç nömrə "Molla Nəsrəddin" satılır".

Yazıq Molla... Kaş gəlib Biləcəridə mətbuat yayımının indiki halını görəydi. Əhali sayı, yaxud, jurnalın dili ilə desək "türk işçilər" indi Biləcəridə iki yüz mini keçib, ancaq qəzet-jurnal oxuyanların sayı heç üç nəfər də yoxdur.

**Saxta erməni soyqırımının yubileyinə bir şey qalmadı - təxminən 50 gün. Hələ ki ermənilərin dünya birliyini qardaş Türkiyəyə qarşı öz sərsəm iddialarına inandırmaq cəhdləri ciddi effekt vermir. Və nə yaxşı ki, vermir.**



# İsraildən Azərbaycan və Türkiyəyə tarixi reverans

## Yəhudi dövləti saxta erməni soyqırımının yubiley tədbirini boykot elədi; aprelin 24-də rəsmi Təl-Əviv İrəvana nümayəndə göndərməyəcək; az öncə prezident Rivlin BMT tribunasından Xocalı soyqırımı haqda danışmışdı...

Artıq Ermənistanda bu reallığın dərki başlayıb. Yerli mətbuat, müstəqil ekspertlər tərəfindən hətta Sərkisyan hökumətinin "sayəsində" 100 illik yubiley tədbirlərinə hazırlıq işinin iflas olması haqda ittihamlar səslənir. Bunu da ilk növbədə 24 aprel törənlərinə dünya liderlərinin qatılmasını təmin eləmək yönündə iqtidarın yetərli fəaliyyət göstərə bilməməsi, daha çox daxili siyasi (müxalif) qüvvələrə, intriqalara baş qatması ilə əlaqələndirirlər.

Doğrudan da, yubileyə az qalmasına rəğmən, bu günə yalnız Fransa prezidenti Fransua Olland İrəvana təşrif buyuracağını rəsmən bəyan edib. İngiltərənin baş naziri Devid Kemeronun qatılmayacağı isə bəllidir. BMT Təhlükəsizik Şurasının 5 daimi üzvündən yerdə qalan digər ikisi - Çin və ABŞ liderləri də böyük ehtimalla Ermənistana gəlməyəcəklər.

Həmçinin Təhlükəsizlik Şurasının 5-ci daimi üzvü, son vaxtlar Türkiyə ilə münasibətləri əhəmiyyətli dərədəcə irəli getmiş, blokadada olan Rusiyanın prezidenti Vladimir Putun çətin ki, bu addımı atıb Ankaranı qıcıqlandırsın. Yerdə kim qaldı ki? Böyük dövlətlərin qatılmadığı tədbir isə çətin ki, beynəlxalq əhəmiyyət daşısın və ermənilərin gözlədiyi nəticəni versin.

Başqa bir səbəb sözsüz ki, saxta "genosid" iddiasının dünya üçün daha əvvəlki tək maraq kəsb etməməsi, açığı, dünyanın bu məsələdən yorulması, qlobal güclərin isə Türkiyəyə qarşı zaman-zaman istifadə elədikləri bu təzyiq alətinin ənənəvi effekti verməməsidir. Dünyanı indi əlbəttə ki, daha ciddi və ağrılı problemlər - terrorçuluq, İŞİD, Yaxın Şərq (İraq, Suriya) məsələləri düşündürür. Həmin məsələlər nəinki yaxın aylar, yaxın illər üçün beynəlxalq təhlükəsizlik baxımından ön sıralarda dayanacaq, nəinki qondara "genosid" mövzusu.

Bu mənada ermənilərin öz iddialarını heç olmasa, 2015-ci ildə - yubiley ilində beynəlmiləlləşdirmək arzusu daşa dəymiş hesab edilə bilər. Bundan əlavə, Türkiyə və Azərbaycan lobbilərinin son illər qat-qat fəal iş aparması da öz sözünü deməkdədir. Habelə, rəsmi Ankaranın anti-soyqırım təbliğatı - 24 aprelə Çanaqqala zəfəri ilə bağlı yubiley tədbirinin planlaşdırılması və s. kimi kontur-addımlar öz müsbət təsirini göstərməkdədir...

Bu arada dünya siyasətinə ciddi təsiri olan yəhudi lobbisinin və onun dövlətinin - İsrailin 24 aprellə bağlı mövqeyi də bəlli olub. İsrailin Ermənistandakı səfiri Şmuel Meyrom erməni mediasına müsahibəsində diplomatik nəzakətlə, lakin kifayət qədər açıq mətnlə rəsmi Təl-Əvivin 24 aprel törəninə qatılmayacağının anonsunu verib.

**Sitat: "Bu il İsrailin Müstəqillik Günü aprelin 22-dən başlayır və bütün sonrakı gün davam edir. Aprelin 24-ü cümə gününə təsadüf edir. Məhz cümə günü axşam Şabbat başlayır. Ona görə də İsrailin rəsmi şəxslərinin həmin gün bu tədbirlərdə iştirakı sadə məsələ deyil. Bizim nəzərimizcə, 24 aprel hansısa rəsmi səfər üçün problemli tarixdir. Ümid edirəm ki, İsrailin rəsmi nümayəndə heyəti İrəvana il ərzində baş çəkəcək".**

Diplomatik dildən tərcümədə bu, elə imtina deməkdir. Eyni zamanda erməni "genosidi" iddialarının yəhudi dövləti və lobbisi tərəfindən ciddi qəbul edilmədiyinin, İsrailin onu heç vaxt tanımayacağının etirafıdır. Nəhayət, rəsmi Təl-Əvivin hazırda heç də isti münasibətlərdə olmadığı Ankaraya və əlbəttə ki, Bakıya mühüm, tarixi reveransıdır.

Yada salaq ki, az öncə - yanvarın 28-də İsrail prezidenti Reuven Rivlin BMT Baş Assambleyasında Holokost qurbanlarının xatirəsini anım mərasimində çıxışı zamanı dünyanın müxtəlif regionlarında, o cümlədən Əfqanıstan, Suriya, Bosniya və Nigeriyada törədilmiş soyqırım və qırğınlardan danışarkən Xocalı faciəsindən də söz açmış, dünya birliyinin soyqırıma qarşı mübarizəsinin kifayət qədər effektiv olmadığını vurğulamışı.

**Sitat: "Bu mübarizə Bosniyada kifayət qədər effektiv oldumu? Bu mübarizə Xocalıda qətliamın qarşısının alınmasına təsir göstərə bildimi? Yaxud əfqanların Taliban tərəfindən öldürülməsinin qarşısını aldımı? Bəs bu gün Suriyada kifayət qədər effektivdirmi?.."**

❑ **Siyasət şöbəsi**

# Tahir Süleyman Öcalanın çağırışından danışdı

## "Azərbaycan Kürdləri" İctimai Birliyi rəhbərinin fikrincə, Türkiyə konstitusiyasında dəyişiklik etməsə, PKK silahı yerə qoymayacaq

**Həbsdə olan Abdulla Öcalanın PKK-nın silahı yerə qoyması çağırışına reaksiya verilib. Qəndildə olan kürd rəhbərliyi bunun Türkiyə hökumətinin atacağı addımdan asılı olduğunu bəyan edib. AKP hökumətindən kürd rəhbərliyini Öcalanla görüşdürməsi tələb olunub.**

Təşkilat bəyan edib ki, Türkiyə hökuməti "yol xəritəsi"nin irəli sürdüyü təkliflərin heç birinə əməl etməyib, kürd probleminin müddətini uzadıb: "Öndər Aponun Türkiyə dövlətinə bu vəziyyətdə etdiyi təklif yeni bir şansdır. Hər şey hökumətin atacağı addıma bağlıdır. 2013-cü ilin Novruz bayramında elan etdiyimiz atəşkəs qüvvədədir. Baxmayaraq ki, bu dövr ərzində polis, əsgər tərəfindən kütləvi şəkildə uşaq, qadın, adi və siyasi insanlar həbs olunub".

Bu bəyanatdan sonra PKK-nın silahı yerə qoyacağı sual altındadır. Hərçənd razılıq əldə olunarsa, Öcalanın azadlığa çıxmaq şansı da yaranır. Bəs Azərbaycanda yaşayan kürdlər bu barədə nə düşünür?

**"Azərbaycan Kürdləri" İctimai Birliyinin rəhbəri, "Diplomat" qəzetinin baş redaktoru Tahir Süleymanın** sözlərinə görə, əslində PKK ilə Türkiyə dövləti arasında barışıq çoxdan əldə olunmalı idi.

Kürd əsilli baş yazarın fikrincə, bütün millətlər mənsubiyyətinə görə tanınmalıdır. T.Süleyman PKK-nın bir şərtlə razılaşacağını hesab edir: "Türkiyə konstitusiyasında dəyişiklik olunmalıdır və kürdlərin milli varlığı tanınmalıdır, milli idarəçilik olmalıdır. Amerikanın özündə ştatlar var və bu, dünya sivilizasiyasında olan idarəçilikdir. Əgər bu dəyişiklik edilməsə, PKK silahı yerə qoymayacaq. Qəndildə olan rəhbərlik Öcalanla razılaşmaq istəmir".

**T.Süleymanın sözlərinə görə, İraqda Bərzani hökuməti bütün xalqların hüquqlarını tanıyıb:** "Ərəb və kürd dilləri kimi türkmənlərin, asurilərin, kıldanilərin, ermənilərin, rəsmi dili konstitusiyasında qəbul olunub. Bunu Türkiyə də qəbul edə bilər



ki, konfliktli məsələlər öz həllini tapsın. 1999-cu ildə Öcalan həbs ediləndə bir fikir işlətmişdi ki, imkan versinlər türk dövlətinin demokratikləşməsinə kömək edəcəyəm. Bu gün Öcalanla Türkiyə Milli Təhlükəsizlik Komitəsi barış üçün demək olar ki, birgə çalışır. Bu barışıq çoxdan olmalıydı. Çünki dava-dalaşın, ölümün, fəlakətin cavabını sülh yolu ilə verəcək addımlar atılmalıdır. Millətlərin milli mənsubiyyəti tanınmalıdır, milli özünüidarəçilik demokratik yollarla həyata keçirilərək, illərdir qarşıdurmaya səbəb olan münaqişəyə son qoyulmalıdır. Necə ki Azərbaycanda milli mənsubiyyətlik tanınır".

**T.Süleyman yada salır ki, Türkiyədə qəzetlər, telekanallar açılıb:** "Amma ölkə rəhbərliyi rəsmən konstitusiyada demokratik dəyişiklik etsə, millətlərin varlığı və hüquqları tanınsa, PKK silahı yerə qoyar. Ərdoğan istəsə bu addımı ata bilər və münaqişə bir anda öz həllini tapar. Mən hələ Öcalan tutulanda proqnozlaşdırmışdım ki, 2015-ci ilin Novruzuna qədər azadlığa çıxacaq. Bu gün onun azadlığa çıxması üçün imkan yaranıb. Əgər razılaşma olarsa, PKK silahı yerə qoyarsa, Öcalan azad edilə bilər. Ancaq hələ ki onun seçkilərdə iştirakı, millət vəkili olacağı mümkün görünmür.

Ola bilsin konstitusiyasında dəyişiklik olsun və bu demokratik addımla Öcalanın da namizədliyi verilsin. Güman edirəm bu seçkilərdə olmasa da, Öcalan növbəti seçkilərdə mütləq parlamentdə özünə yer tutacaq".

❑ **E.SALAMOĞLU**

**2015**-ci ilin kifayət qədər təlatümlü keçəcəyi elə ilk iki ayın statistikasından aydın görünür. Dünya çapında baş verənlər, ərəb dünyasında gərginliyin artması, neftin qiyməti ilə bağlı ajiotaj və böhranlı situasiya, Ukrayna cəbhəsindən gələn ağır xəbərlər, Rusiyadakı hay-küylü siyasi qətlin törədilməsi kimi olaylar illə bağlı nikbin proqnozlara yer qoymur. Azərbaycanın ötən 60 günü ilə bağlı da ekspertlərin maraqlı yanaşmaları var.

# İlə damğasını vuran iki ayın əsas hadisəsi

**Politoloq Elxan Şahinoğluna** görə, Azərbaycan üçün ilin ilk aylarının əsas hadisəsi manatın devalvasiyası oldu: "Sadəcə, bir çoxları devalvasiyanın tədricən gedəcəyini düşünürdü. Ancaq vəziyyət o dərəcə mürəkkəbləşdi ki, hakimiyyət "şok terapiyası"na üstünlük verdi. Manatın devalvasiyası iqtisadiyyatda gələcək aylarda müəyyən gərginlik yaradacaq. Ancaq bir tərəfdən hadisələrin bu istiqamətdə cərəyanını labüd hesab edirəm. Neft gəlirləri ölkəni tənbəlləşdirmişdi, indi isə bu gəlirlə olmadan yaşamağı və işləməyi bacarmalıyıq. Havayı pul dövrü bitdi".

**Ekspert bildirdi ki, 2015-ci ilin iki ayında ABŞ-ın Azərbaycanla bağlı siyasətində də müəyyən korrektələr müşahidə olundu:** "Dövlət Departamentinin rəsmisi Viktoriya Nullandın Bakıya səfəri göstərdi ki, Vaşinqton Azərbaycanla enerji və təhlükəsizlik əməkdaşlığını insan haqları və demokratiya məsələlərinə qurban vermək istəmir. Vaşinqtonun əsas qorxusu Ukraynadakı hadisələrdən sonra Moskvanın öz nəzərini Cənubi Qafqaza, o cümlədən Azərbaycana yönəldəcəyidir. Vaşinqton isə bölgənin əsas dövləti Azərbaycanın Rusiyanın təsiri altına düşməsini istəmir. Bunun baş verməməsi üçün isə rəsmi Bakı ilə dialoqu yoğunlaşdırmaq lazımdır. Amerika rəsmilərinin son zamanlar tez-tez təkrarladıqları "Dağlıq Qarabağ ətrafındakı rayonlar azad olunmalıdır" və "Dağlıq Qarabağda saxlanılan iki azərbaycanlı girov geri qaytarılmalıdır" kimi açıqlamalar Azərbaycan hakimiyyətinə və cəmiyyətinə xoş gəlmək üçün söylənilib. Bunun qarşılığında isə rəsmi Bakının anti-Amerika ritorikası zəifləyib".

**E.Şahinoğluna görə, iki ayın yadda qalan hadisəsi Almaniya kansleri Angella Merkelin Azərbaycanın ərazi bütövlüyünü birmənalı dəstəkləməsi və Ermənistanı işğalçı adlandırmasıdır:** "Bunun nəticəsidir ki, Azərbaycan hakimiyyəti Almaniyanın həmsədrlər sırasına qoşulması məsələsini beynəlxalq müzakirə predmetinə çevirib. Bu müşkül məsələ olsa da, Merkelin qətiyyətli mövqeyi Bakı ilə Berlin arasındakı soyuqluğa son qoyub. İlin digər önəmli hadisəsi Cənub Qaz Dəhlizi layihəsinin Bakıdakı toplantısında Müşahidə Şurasının formalaşması oldu. Azərbaycan hakimiyyəti Kremllə normal münasibətlərə çalışır, Rusiya ilə siyasi və iqtisadi müstəvidə əməkdaşlığını davam etdirir. Ancaq enerji sahəsində istər-istəməz Rusiyaya rəqibdir. İlham Əliyev avropalılarla görüşlərində tez-tez belə bir fikir səsləndirir: "Yalnız boru xətlərinin deyil, həm də enerji mənbələrinin diversifikasiyasına ehtiyac var". Əslində bu cümlə Rusiyaya aiddir. Çünki Rusiya müxtəlif boru xətləri ilə Avropaya qaz ötürür. Bu isə Avropa üçün mənbənin diversifikasiyası demək deyil. Əliyev isə Azərbaycan qazının Avropa üçün məhz enerji mənbəyinin diversifikasiyası anlamına gəldiyini bildirir. Kreml enerji bazarında rəqibləri sevmir, Avropanın Rusiya qazından asılı olmasını istəyir. Azərbaycan isə öz qazını yaxın gələcəkdə TAP və TANAP boru xətləri ilə Avropaya çatdırmaqla Rusiyanın bu monopoliyasına zərbə endirəcək".



**Mehman Əliyev:** "İki ay onu göstərdi ki, biz ağır dönəmə qədəm qoymuşuq"



**Elxan Şahinoğlu:** "Merkelin ərazi bütövlüyümüzü birmənalı dəstəkləməsi və Ermənistanı işğalçı adlandırması da yaddaqalan hadisə oldu"



**Fəzail Ağamalı:** "Ətrafda və dünyada gedən proseslər Azərbaycana da təsirini göstərdi"

**"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyevə görə, geridə qalan aylar ilk növbədə böhranla yadda qalıb:** "Böhran hakimiyyətin gözlədiyindən daha tez başladı. Onsuz da o, hiss olunurdu, ancaq gözəçarpan şəkildə Mərkəzi Bankın qərarından sonra birdən-birə manatın devalvasiyası ilə özünü göstərdi. Bunu heç kəs, hətta məncə, prezidentin özü də gözləmirdi. O mənada ki, 10 yanvarda prezident vurğuladı ki, 2015 sınaq ilidir, amma dedi vəziyyət nəzarətdədir. Hətta xarici investorlara müraciətlə onları öz pullarını Azərbaycan banklarında manatla saxlamağa çağırdı. Ancaq 27 yanvarda birdən-birə vəziyyət dəyişdi və o, artıq tamam başqa fikir söylədi. Bu iki ay onu göstərdi ki, biz ağır dönəmə qədəm qoymuşuq".

**M.Əliyev ABŞ diplomatı V.Nulandın Bakı səfərini və Azərbaycan-Amerika müştərək komissiyasının yaradılmasını da mühüm hadisə sayır:** "Həmçinin mənim əvvəlcədən dediyim kimi, islahatlar gözlənilir. Bu istiqamətdə də komissiya fəaliyyət göstərəcək. İqtidar-müxalifət dialoqunu da xatırlatmaq olar. Mövcud vəziyyət ölkədə islahatların daha çevik şəkildə həyata keçirilməsi və tezləşdirilməsi məsələsini ortaya gətirir".

**Deputat Fəzail Ağamalı geridə qalan iki ayın yekunlarını dəyərləndirərkən birmənalı fikir söyləməyin çətin olduğunu vurğuladı:** "Azərbaycan dünyanın bir parçasıdır və bu mərhələdə onun sərhədlərindən kənarda, xüsusilə də Rusiyada, Ukraynada gedən çox ciddi proseslər özünün daha gərgin mərhələsinə qədəm qoydu. Əlbəttə, bütün bunlar heç şübhəsiz ki, Azərbaycana da təsirini göstərdi. Ölkə prezidenti yanvar ayında baş vermiş hadisələrin gedişini təhlil edərək cəmiyyətimiz üçün müəyyən mesajlar verdi. Lakin doğrusu, hadisələrin gedişi göstərdi ki, Azərbaycan cəmiyyəti buna hazır deyildi. Əslində ölkə prezidentinin mövqeyindən sonra Mərkəzi Bank maarifləmə işi aparmalı, cəmiyyətə daha aydın, insanların başa düşəcəyi dildə izahat verməli idi".

❑ **Cavid TURAN**

# Bakıdakı "Qiymət artımına son!" aksiyasını ermənilər təşkil edib? - iki şok iddia

## Etiraz aksiyasının təşkilatçıları barədə sensasion iddialar dolaşır; siyasilər "bunu hakimiyyət edib" qənaətindədirlər; əks fikirlər də var

**Fevralın 28-də Fəvvarələr meydanında ölkəmizdə manatın ucuzlaşması ilə bağlı süni qiymət artımına qarşı keçirilən aksiyadan 3 gün ötür. Bu müddət ərzində aksiya ilə bağlı bir sıra şok iddialar səsləndirilir. Sosial şəbəkələrdə iddia olunur ki, aksiyanın facebookdakı eventinin yaradıcısı olan Eldar Bakinski ermənidir. Bu adlı facebook istifadəçisini tanıyan yoxdur, böyük ehtimalla bu profil saxtadır; bu səbəbdən də bu cür versiyanı kimsənin qətiyyətlə təkzib etməsi mümkünsüzdür.**

Lakin əsas iddialardan biri budur ki, etiraz aksiyasını hakimiyyət özü təşkil edib. Bu iddia daha çox müxalifət düşərgəsində populyardır.

Belə bir fikir NİDA Vətəndaş Hərəkatının martın 1-də Müsavat qərargahında keçirdiyi tədbirdə də səslənib. Toplantıda ekspert qismində iştirak edən **Ərəstun Oruclu** belə bir ehtimalın olduğunu söyləyib: "Nə mən, nə də bir başqası o mitinqin təşkilatçısını tanımırdı. Məncə, bu özü hər şeyi deyir. Düzdür, ola bilər ki, bu həqiqətən də etirazı olan insanlardır. Bu da bir ehtimaldır. Amma mən müşahidə etdim ki, aksiya bitən kimi polislər ərazidən uzaqlaşdılar. Deməli, bu aksiya anlaşılmış bir şey idi. Mən belə düşünürəm. Əks halda, polis orada qalmalı idi, MTN əməkdaşları ərazidə qalmalı idilər. Amma belə olmadı".




**Aksiyanın iştirakçılarından olan Müsavat Məclisinin üzvü Mustafa Hacıbəyli ortaya atılan iddiaların real olduğuna inanmadığını bildirdi:** "Düşünmürəm ki, aksiya hakimiyyət tərəfindən təşkil olunub. Hakimiyyətin ölkədə tərəfdarının qaldığına da inanmıram. Biz hakimiyyəti olduğundan daha güclü görürük. Bu, fəaliyyətimizə ciddi mane olur. Vətəndaş olaraq çağırışa qoşulmuşdum. Aydındır ki, tanınmamış bir insanın aksiya təşkil etməsi gözlənilən effekti verə bilməz. Bununla bağlı mətbuata münasibətimi bildirmişəm. Belə aksiyaları tanınmış şəxslər təşkil etməlidir. Belə aksiyaların təşkilatçılarını hakimiyyət həbs edir deyə, kimsə anonim adla insanları etiraza çağırmışdı. Həbs olunmaqdan sığortalanmaq üçün. Bu ehtimala daha çox inanıram. Müxtəlif təşəbbüslər var. Ümumiyyətlə, aksiya açıq adla olmalıdır. Hər halda, hakimiyyət tərəfindən təşkil olunduğuna inanmıram. Belə olsa belə, iştirakçılar bundan xəbərsiz olublar. Biz vətəndaş kimi, qiymət artımına etiraz üçün aksiyaya getmişik".

**Mustafa Hacıbəyli aksiyada çoxlu sayda polis əməkdaşlarının olduğunu da qeyd etdi:** "Aksiya saat 15:00-a təyin olunmuşdu. Saat 4-ə qalmışa qədər orada olmuşam. Çoxlu sayda polis əməkdaşı, mülkü geyimli və hüquq-mühafizə orqanları əməkdaşları var idi. Bir daha deyirəm ki, səsləndirilən ehtimal əsassızdır. Təşkilatçı sadəcə özünü qorumaq üçün belə bir addım atıb. Digər tərəfdən, aksiya iştirakçısı uzun müddət təqib, həbslərə məruz qalır. Bunun zaman-zaman şahidi olmuşuq".

**Aksiyada həbs olunaraq 400 manat məbləğində cərimə olunan müsavatçı gənc Samir Poladov event yaradan şəxsin də saxlanılanlar arasında olduğunu söylədi:** "Aksiya bir anda başladı. Yaşlı bir qadın qiymət artımına etiraz etdi. Polislər onu həbs etdilər. Orada hakimiyyətyönlü kimsə yox idi. Saxlanılanlardan 5 nəfəri şəxsən tanıyırdım. Bölmədə polis işçiləri ilə hər hansı bir problem yaşamadıq. Sanki Səbayel yox, alman polisi idilər. Məhkəmə prosesi gərgin oldu. Hakim hərəkətimizi pislədi və müşavirəyə getdi. Qarşıdan bayram gəldiyini və uşaqlardan ikisinin 19 yaşının olduğunu nəzərə alıb, 400 manat cərimə yazdı. Event yaradan da həbs edilmişdi. Bundan əvvəl onu heç yerdə görməmişəm. Onun kimliyini yalnız mən bilirdim. Ona da bizə göstərilən münasibət oldu. Hakimiyyət tərəfindən təşkil olunmasını deyə bilmərəm. Aksiya günü bizi müdafiə edən "Yeni Müsavat" qəzetinə təşəkkürümü bildirirəm. Hər zaman demişəm, "Yeni Müsavat" bizi müdafiə edən son qalamızdır".

**Qeyd edək ki, "Qiymət artımına son!" aksiyasında 9 nəfər saxlanılmışdı. Onların hər biri müxtəlif pul cərimələri ilə sərbəst buraxılmışdı.**

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 47 (6075) 3 mart 2015




# Los Ancelesdəki konsulluğumuzda pul davası - sensasion təfərrüatlar

Baş mühasib baş konsulu və XİN-i niyə məhkəməyə verib? Azad Həsənov Nəsimi Ağayevin "çirkin təklifləri"ndən imtina etdiyi üçün işdən qanunsuz çıxarıldığını deyir; detallar bu yazıda...

**Azərbaycanın Los Ancelesdəki (ABŞ) konsulluğunda böyük qalmaqal yaşanıb. Konsul Nəsimi Ağayevlə baş mühasib Azad Həsənov arasında başlanan mübahisə sonuncunun işdən çıxarılması ilə nəticələnib. Ölkəyə qayıdan Həsənov və həyat yoldaşı, konsulluqda çalışmış Sevinc Bayramova İnzibati İqtisad Məhkəməsinə üz tutublar. Hər 2 şəxsin nümayəndəsi olan Abdulla Əfəndizadə məhkəmələrin sifarişlə qanunsuz qərarlar verdiyini deyir.**

Qeyd edək ki, martın 4-də Bakı Apelyasiya Məhkəməsində Həsənovun Azərbaycan Xarici İşlər Nazirliyinə (XİN) qarşı işdən çıxarılma əmrinin etibarsız sayılması və ləğv edilməsi, həmçinin işə bərpa olunmasına dair şikayətinə baxılacaq.

Nümayəndə bildirib ki, A.Həsənov 2010-cu ildən XİN-də çalışıb. Həyat yoldaşı S.Bayramova isə 2003-ci ildən orada işləyib. Həsənovla Bayramova 2010-cu ildə rəsmi nikaha daxil olublar: "XİN heç bir qanuni əsas olmadan Azad Həsənovu 23 yanvar 2013-cü ildə, həyat yoldaşı Sevinc Bayramovanı isə 30 may 2013-cü ildə işdən azad edib".

Həsənovun iddia ərizəsindən məlum olur ki, 2013-cü ilin yanvarında baş konsul Nəsimi Ağayev tərəfindən təhqirlərə, incidilmələrə məruz qalıb. **Ərizədən sitat:** "Normal işləməyimə mane olduğuna görə dəfələrlə cavabdeh Xarici İşlər Nazirliyinə, nazirliyin müvafiq qurumlarına şikayətlər etmişəm. 22 yanvar 2013-cü ildə şikayətimi Azərbaycan XİN-ə göndərmişəm. Həmin ərizəmdə bildirmişəm ki, həyat yoldaşım Bayramova analıq məzuniyyətini 1 il müddətinə uzadır. 2013-cü ilin fevralında XİN-dən Los-Ancelesdəki baş konsulluğa zəng vurub qeyri-rəsmi mənə bildiriblər ki, işdən çıxarılmışam. Lakin hansı maddə ilə işdən çıxarılmağım barədə dəqiq məlumat vermədilər. Həmin vaxt mən və həyat yoldaşım Bakıya qayıda bilmədik. Nəhayət, 1 may 2013-cü ildə Bakıya döndük. Həyat yoldaşım S.Bayramova XİN-ə getdi və hamiləliyi barədə arayış təqdim etdi. Orada ona təklif ediblər ki, ərizəsini yazıb işdən azad olsun. Lakin həyat yoldaşım cavabdehin istəyi ilə razı olmadı. 20 oktyabr 2013-cü ildə övladımız oldu. Başımız qarışıq olduğundan əvvəlki analıq məzuniyyətinin qurtarması və yeni uşağa dair analıq məzuniyyətinə əsasən məlumat vermək, pul məbləği almaq üçün 2013-cü il dekabrın sonlarında Xarici İşlər Nazirliyinə getdikdə ona bildiriblər ki, artıq onu işdən azad ediblər. Həyat yoldaşım əmək kitabçasını və işdən çıxarılma əmrini tələb etdikdə ona işdən çıxarılma əmrinin kserosurətini veriblər. Mən də cavabdeh XİN-ə zəng vurub, öz işdən çıxarılma əmrimi, əmək kitabçamı istədim. Cavabdeh işdən çıxarılma əmrimi, əmək kitabçamı vermədiyindən 25 dekabr 2013-cü ildə teleqramla mənə rəsmi şəkildə hansı maddə üzrə işdən çıxarılmam barədə məlumat verilməsini, işdən çıxarılma əmrinin surətini, əmək kitabçamın təqdim edilməsini tələb etdim. Lakin uzun müddət cavab verilmədi. Bir sözlə, işdən çıxarılmam tam qanunsuzdur... Nəsimi Ağayev 2012-ci il aprelin axırlarından baş konsul kimi işə başlayıb. Əvvəlcə münasibətimiz pis olmayıb. Sonradan mənimlə yola getmədi. Çünki çirkin yollara getməyi tələb edirdi. Tələb edirdi ki, artıq pulları mühasibata qeydiyyata alım, 70 faizini ona, 30 faizini isə özümə götürüm. Mən isə həmin qanunsuz, saxtakar yolu tutmaqdan imtina etdim. Məhz bunlardan sonra o məndən tələb edirdi ki, öz xoşumla işdən çıxım gedim. O qəsdən mənim verdiyim mühasibat hesabatlarını vaxtında imzalamırdı. Belə olanda təbii ki, hesabatın nazirliyə göndərilməsi əngəllənirdi. Mən telefonla nazirliklə danışdıqda, söhbət əsnasında Ağayevin qanunsuz hərəkətlərini bildirirdim. Nazirlikdən mənə deyirdilər ki, hesabatı onun imzası olmadan göndər. Mən də məcbur olub, belə göndərirdim".

**A.Həsənov qovğanın yaranmasının səbəbini belə izah edir:** "Baş konsul ailəsi ilə restoranlarda, barlarda küllü miqdarda məbləğlər xərcləyir, əylənirdi. Oradan qəbzləri gətirib onları mühasibatda sənədləşdirməyimi istəyirdi. Guya restoran və barlarda həmin pulları xaricilərlə Azərbaycan haqda, Qarabağla bağlı söhbətlər apardığı zaman xərclənibmiş kimi rəsmiləşdirməyimi tələb edirdi. Mən əksər hallarda bundan imtina edirdim. Bu da bizim münasibətlərimizin daha da qəlizləşməsinə gətirib çıxarırdı..."

A.Həsənov barəsindəki əmrin ləğv edilməsini və onun qanunsuz işdən çıxarılmasında iştirakı olan məsul vəzifəli şəxslərin barəsində xüsusi qərardadın çıxarılmasını tələb edir.

**P.S.** *Qarşı tərəfin mövqeyini də dərc edə bilərik*.

❑ **E.MƏMMƏDƏLİYEV**

**Rusiya müxalifətinin parlaq siması olan Boris Nemtsovun qətlindən sonra dünya mediası onun karyerası, sürətli yüksəlişi və seriallara mövzu olacaq qədər qaynar şəxsi həyatı ilə bağlı yazmağa başladı. Xüsusən də qətlə yetirilən zaman yanında ukraynalı sevgilisinin olması faktoru... bu burulğanlı həyatı bir daha diqqət önünə çəkdi. "Yeni Müsavat" Rusiya saytları arasında apardığı gəzişmə zamanı mərhum müxalifət liderinin portretini cızmağa çalışıb.**



# Yaraşıqlı siyasətçi, fırtınalı eşq hekayələrinin qəhrəmanı və...

## Mərhum Boris Nemtsov barədə bilinməyən gerçəklər



### Saysız-hesabsız qadın, amma bir qadın...

B.Nemtsov aktiv şəxsi həyat yaşasa da, rəsmi olaraq cəmi bir dəfə evli olub. Bununla belə, heç zaman həyat yoldaşı Raisa Axmetovadan rəsmi şəkildə boşanmayıb. Bu izdivacdan onun Janna adlı qızı dünyaya gəlib. Janna da sonradan tanınmış ictimai xadim olub.

Nijni Novqorodun qubernatorluğuna gələndən sonra Nemtsov ixtisasca jurnalist olan Yekaterina Odinsova ilə tanış olub. Yekaterina da ona iki uşaq dünyaya gətirib - 1995-ci ildə oğlu Antonu, 7 il sonra, 2002-ci ildə isə qızı Diananı.

Bir müddət keçəndən sonra Nemtsovun katibəsi İrina Korolyova ilə də sevgi macərası başlanıb. Və bu münasibət də dünyaya daha bir körpənin - qızı Sofiyanın gəlməsi ilə nəticələnib. Siyasətçi həyatına girən heç bir qadından rəsmən evli olduğunu gizlətməyib. Amma maraqlıdır ki, hətta o, rəsmən evliliyini yekunlaşdırmaq istəmədiyini də etiraf edib. Özü də çox maraqlı bir əsaslandırma ilə - hamıya belə rahatdır.

### Bütün sevdiyi qadınları yubileyinə yığıb və...

Jurnalistlərin iddiasına inansaq, Boris Yefimoviçin 2009-cu ildə qeyd etdiyi 50 illik yubileyində həyatındakı bütün qadınları toplayıb. Zamanında vətəndaş nikahında olduğu qadınlar, rəsmi həyat yoldaşı və onlardan olan uşaqları. O, bütün uşaqlarını qəbul edib və onların hər birinin həyatında iştirak edib.

Amma həyatının son illərində Nemtsov bir neçə dəfə çox fərqli qadınlarla görünüb. Məsələn, onun 3 il boyunca Anastasiya Oqneva ilə sevgi macərası davam edib. Mətbuat bu qadının ekskort-xidmətin üzvü (fahişəliklə məşğul olub) olduğunu yazsa da, siyasətçi bunu daim təkzib edib.

Taleyin ironiyasıdır ki, B.Nemtsovun qətlinə şahid olan şəxs də məhz qadın olub. 21 yaşlı ukraynalı model Anna Duritskaya ilə siyasətçinin münasibətlərinin nə zaman başladığı, nə qədər davam etdiyi isə suallardan biridir.

### Onu siyasətə anası gətirib

Amma Nemtsov barədə "pleyboy müxalifətçi" obrazı formalaşdırmaq da yanlış olardı. Çünki mərhum siyasətçi həm də yaxşı idmançı olub, tennislə maraqlanıb. Fizika-riyaziyyat elmlər namizədi idi, 60-dan çox elmi işin və bir neçə ixtiranın müəllifidir.

B.Nemtsovun həyatının digər detallarına gəlincə... Onun vətəni Soçi olub. 1959-cu ilin 9 oktyabrında Soçidə anadan olan Borisin anası pediatr, atası isə tikinti komitəsinin müavini olub. Onun uşaqlığı dəniz qırağında keçib, məktəbi isə Qorki şəhərində oxuyub. Məktəb həyatından sonra o, Qorki şəhərində universitetə, radiofizika fakültəsinə daxil olub və 1981-ci ildə buranı bitirib. Daha sonra dissertasiya müdafiə etsə də, həmin vaxt elmlə deyil, siyasətlə maraqlanmağa başlayıb.

B.Nemtsovun siyasi karyerası isə anasının sayəsində başlayıb. Belə ki, 1988-ci ildə anası Qorkidə atom stansiyasının qurulmasına etiraz edənlərdən olub. Nemtsova bir həkim kimi onu təhlükəsini anlayırdı. Çünki leykozdan əziyyət çəkən insanları dəfələrlə müalicə edib. Bu hərəkata aktiv şəkildə Boris də qoşulub. Hətta sonradan verdikləri müsahibələrində müxalifət lideri etiraf edib ki, məhz anası onu siyasətə çəkib gətirib.

Tezliklə gənc alim o qədər populyarlıq qazandı ki, 1989-cu ildə SSPİ deputatlığına namizədliyi irəli sürüldü. Ondan sonra karyerası çox sürətlə irəlilədi. 1990-cı ildə Qorki üzrə deputat oldu. Bir il sonra isə prezident seçkilərinə namizəd olan Boris Yeltsenin etibarlı nümayəndəsi oldu. Bir müddət sonra Borisin tutduğu vəzifənin adı dəyişdirilidi və o, qubernator oldu.

### Jirinovskiyə sok atan siyasətçi necə populyarlaşdı?

Amma B.Nemtsovun siyasi karyerasındakı ən böyük dönüş 1991-ci ildə baş verib. Həmin ilin avqustunda o, ailəsi ilə birgə tətilini keçirmək üçün Moskvaya gəlib. O, həmin vaxt Ağ Evin qarşısında olub və müdafiədə iştirak edib. Məhz bu səbəbdən 1991-ci ildə Yeltsinlə tanışlığı sayəsində Boris onun Nijeqorodsk vilayətində etibarlı nümayəndəsinə çevrilib.

Siyasətçi öz dairəsində populyarlığı ilə seçilib. Məhz buna görə təkrar qubernator seçkilərində də qalib olub. Bu, 1995-ci ildə baş verib. Məhz bu dönəm onun siyasi karyerasının pik nöqtələri sayılır. Həmin il o, Vladamir Jirinovski ilə canlı yayımda yaşadığı qalmaqala görə bir daha məşhurlaşıb. Belə ki, gərgin müzakirələrdən sonra hər iki siyasətçi emosiyalarını saxlaya bilməyib, bir-birilərinə meyvə şirəsi, eləcə də stəkan atıblar. Bu hadisədən sonra Nemtsovun populyarlığı daha da artıb. Media isə onun haqqında hər zaman müstəqil, fərqli fikirləri olan siyasətçi imici formalaşdırıb.

### Hakimiyyətdə təmsil olunub və çox peşmançılıq keçirib

B.Nemtsovun Moskvadakı fəaliyyətinə gəlincə... O, qubernator postunu 1997-ci ildə tərk edib. Həmin vaxt o federal hakimiyyətdə birinci vitse-prezident olub. Onun kurasiyasına bir çox sahələr aid olub. Belə ki, antimonopol siyasəti, eləcə də siyasəti nəzarəti, sosial bloku nəzarət altında saxlayıb. 1997-ci ilin aprelindən noyabrına qədər o, yanacaq və sənaye naziri vəzifəsini də icra edib. Adı hər zaman hakimiyyətdəki ən gənc məmur kimi hallanıb. Məsələn, o, bütün məmurların yerli, milli "Volqa"dan istifadəsi təşəbbüsü kimi çıxış etsə də, bunun hər hansı nəticəsi olmadı.

1998-ci ilin yazında siyasətçi iqtisadi-maliyyə sferasına keçid edib. Amma avqustdakı maliyyə böhranından sonra onu vəzifədən çıxarmadılar. Əksinə, o, baş nazir funksiyasını davam etdirdi, sonra istefa verdi. Ardınca isə mediaya müsahibələrində hər zaman bildirdi ki, hakimiyyətdə təmsil olunması onun ən böyük səhvi olub. Məhz bu səbəbdən o, irəliyə getmək şansını əldən qaçırıb.

Hakimiyyətdən gedəndən sonra Boris Yefimoviç "Gənc Rusiya" hərəkatını yaradıb və ona rəhbərlik edib. Ardınca isə deputat seçilib. Maraqlıdır ki, rəhbərlik etdiyi hərəkat daha sonra "Sağ Qüvvələr İttifaqı"na (SQİ) daxil olub. Nemtsov sözügedən ittifaqdan deputat seçilərək parlamentin aşağı palatası sədrinin müavini vəzifəsini tutub.

2003-cü ildə isə proseslər əks istiqamətdə cərəyan edib. Belə ki, Dumaya keçirilən seçkilərdə SQİ məğlub olur. Nemtsov bu məğlubiyyətin yükünü öz çiyninə götürərək siyasətdən gedib. Həmin müddətdə o, ancaq bizneslə məşğul olub. 2004-cü ildə Ukraynada baş verən "Narıncı inqilab"ı açıq şəkildə dəstəklədiyi üçünsə Ukrayna prezidentinin qeyri-rəsmi müşaviri olub.

2008-ci ildə Rusiyada keçirilən prezident seçkilərində "SQİ" Boris Nemtsovun namizədliyini irəli sürür, lakin həmin vaxt onun reytinqi bir faizdən də aşağı idi. Nemtsov hələ seçkiöncəsi kampaniya başlayana qədər namizədliyini geri götürür.

2008-ci ildə SQİ partiya kimi ləğv olunur və onun əvəzinə "Düzgün iş" (Pravoye delo) partiyası təşkil edilir. 2009-cu ildə Nemtsov Soçi şəhər meri vəzifəsinə keçirilən seçkilərdə namizədliyini irəli sürür. Ekspertlər onun bu addımını PR-aksiya adlandırırlar. Seçkilərdə Nemtsov ikinci yeri tutaraq, 14 faizdən aşağı səs toplayır.

2012-ci ildən etibarən Nemtsov "Rusiya Respublika partiyası - Xalq Azadlığı partiyası"nın həmsədri və hazırkı Rusiya prezidenti Vladimir Putinin fəaliyyətini tənqid edən bir sıra korrupsiya hesabatlarının müəllifi olub.

8 sentyabr 2013-cü ildə keçirilən regional seçkilərdə Yaroslav Vilayət Dumasının deputatı seçilib.

❑ **Hazırladı Sevinc TELMANQIZI**

# Rəsmi Bakı İrəvanın Qarabağdakı "seçki" şousuna reaksiya verdi

**Azərbaycan prezidentinin köməkçisi, Prezident Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov martın 3-də qondarma "Dağlıq Qarabağ Respublikası"nda keçiriləcək qondarma "parlament seçkiləri"nə münasibət bildirib.**

## Əli Həsənov: "Bu ərazilərdə həyata keçirdiyi hər hansı tədbir işğalçı dövlətin başqa dövlətin ərazisində həyata keçirdiyi tədbir kimi dəyərləndiriləcək"

Ə. Həsənov deyib ki, Dağlıq Qarabağda həyata keçirilən istənilən birtərəfli addım, siyasi, sosial aksiya Azərbaycan tərəfindən müvafiq münasibətlə qarşılaşacaq: "Ermənistan dövləti bu əraziləri işğal edib. Onun bu ərazilərdə həyata keçirdiyi hər hansı tədbir işğalçı dövlətin başqa dövlətin ərazisində həyata keçirdiyi tədbir kimi dəyərləndiriləcək". (APA) **Dövlət rəsmisi Ermənistanın kəlbəcərli girovlarla bağlı tutduğu mövqeyə də münasibət bildirib.** "Çox təəssüf edirik ki, Ermənistan qeyri-konstruktiv mövqeyini, beynəlxalq hüquq normalarına meydan oxumağı davam etdirir. Faktiki olaraq beynəlxalq hüquq normalarının bütün prinsiplərini pozur və açıq-aşkar bu mövqeyini dünyaya çatdırır" deyə, Ə.Həsənov vurğulayıb. Ə. Həsənov bildirib ki, dünyada ikili standartların hökm sürdüyü belə bir zamanda Ermənistanın bu addımları cavabsız qalır: "Amma biz Azərbaycan dövləti olaraq Ermənistanı, o cümlədən onun söykəndiyi, arxalandığı bəzi dairələri xəbərdar edirik ki, bu tipli bəyanatlarla, bu tipli təfəkkürlə, siyasi dünyagörüşü ilə dövlət qurmaq, idarə etmək olmaz. Əgər sözün həqiqi mənasında beynəlxalq hüquq normalarına azca da hörmətlə yanaşırlarsa, heç olmasa öz xalqlarının maraqlarını nəzərə alsınlar. Erməni xalqını öz ekstremist fəaliyyətinin girovuna çevirib, qonşulara ərazi iddiaları üzərində meydan oxumaq bu dövlətin gələcəyini şübhə altına qoyur, sual altına alır".


Əli Həsənov

**"Qarabağ məsələsində addım atılmadıqca, Ermənistanla sərhədləri aça bilmərik". APA-nın sondaki-ka.com-a istinadən verdiyi məlumata görə, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan jurnalistlərin "soyqırım iddialarının 100-cü ildönümündə Ermənistan və ermənilər mövzusunda bir təşəbbüsünüz olacaqmı" sualına cavab verərkən deyib.**

"Şərtimiz odur ki, Qarabağ məsələsində addım atılmadıqca, sərhədlər açılmayacaq. Putin, Olland və Obama ilə söhbətlərimizdə onlar "maraqlandıq, maraqlanacağıq" deyirdilər, hələ heç bir nəticə yoxdur" deyə, Ərdoğan əlavə edib.

Bu arada Soyqırım Həqiqətlərinin Tanıdılması İctimai Birliyinin rəhbəri Ceyhun Ələkbərov, Dünya Azərbaycanlıları Konqresinin Azərbaycan Nümayəndəliyinin rəhbəri Səftər Rəhimli və Diaspor Jurnalistləri Birliyinin İdarə Heyətinin üzvü Elnur Eltürk Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın oğlu Bilal Ərdoğanın rəhbəri olduğu Türkiyə Gənclik və Hizmət Vakfının (Türgev) təqdimat mərasimində iştirak edib. Bu barədə "Yeni Müsavat"a qurumdan məlumat verilib. Qeyd edək ki, Ankarada düzənlənən təqdimat mərasiminə Türkiyə prezidenti də qatılıb. Bundan başqa, Türkiyənin dövlət rəsmiləri, millət vəkilləri və digər nüfuzlu şəxslər də toplantı iştirakçıları arasında olub.

# Kəlbəcər girovlarını necə qaytarmaq olar, yaxud bizim "Rembo"muz varmı?



**Hollivud ulduzu Silvester Stallonenin canlandırdığı "Rembo" obrazı kinosevərlərə yaxşı tanışdır. Dünyaca məşhur olan bu film qəhrəmanı "gülləkeçməz", "məğlubedilməz"liyi, istədiyi bağlı qapıları açıb, sədrləri keçib hazırladığı əməliyyatları uğurla tamamlaması ilə tamaşaçıları heyrətləndirib.**

Səkkiz aydan bəri iki azərbaycanlının, Kəlbəcərdən olan Dilqəm Əsgərov və Şahbaz Quliyevin Şuşa həbsxanasında saxlandığı, onlara saxta "məhkəmə" qurulduğu bu günlərdə "Rembo"nu xatırlamağımız səbəbsiz deyil. Şübhəsiz ki, könül istər ki, filmlərdə gördüyümüz fantastik gücə malik qəhrəman "Rembo"dan Azərbaycanda da olaydı və o, günün birində erməni girovluğunda işgəncələr altında saxlanılan kəlbəcərliləri azad edəydi. Bu mənada Azərbaycanda da "Rembo"nun olub-olmadığı, eyni zamanda girovlarımızı necə azad etməyin yolları barədə suallar ortaya çıxır.

Qeyd edək ki, Milli Qəhrəman Mübariz İbrahimovun təmas xəttini keçərək çoxsaylı düşmən hərbçisini məhv etməsindən, özünün də həlak olmasından sonra onun da haqqında "Rembo" obrazı barədə səsləndirilən fikirlər eşidilirdi.

Eyni zamanda Qarabağ döyüşlərində "Rembo" ləqəbli əfsanəvi döyüşçümüz də olub. Qarabağ müharibəsinin döyüşçüsü, 2-ci qrup əlil Əlibəyli Elxan Şirbağır oğlu 14 sentyabr 1970-ci ildə Lerik rayonunun Çayrud kəndində anadan olub, 1988-1990-cı illərdə Sovetlər Birliyinin ordu sıralarında xidmət edib, 1991-ci ildə könüllü olaraq "Lənkəran batalyonu" adı altında yaradılmış silahlı bölmə tərkibində Qarabağ uğrunda gedən döyüşlərə qatılıb, daha sonra 704 saylı hərbi hissənin tərkibində xidmətini davam etdirərkən döyüşlərin birində ağır kontuziya alaraq yaralanıb, bir gözü görmə qabiliyyətini itirib. 1994-cü il oktyabr ayının 9-da prezident Heydər Əliyevin 218 saylı fərmanı ilə "Hərbi xidmətə görə" medalı ilə təltif olunub. Daha sonra səhhətində yaranan ciddi problemlərlə bağlı ordu sıralarından zabit olaraq ehtiyata buraxılıb. Hazırda Hollandiyada yaşayır.

Bəs indiki situasiya üçün nə demək olar? Keçmiş döyüşçülər kəlbəcərli girovları azad etməyin yolunu necə görür, nə təklif edir?

**Qarabağ qazisi, kəşfiyyat taqımının komandiri olmuş Rey Kərimoğlu deyir ki, girovları azad etmək üçün dövlətin müxtəlif proqramları ola bilər:** "Azərbaycanın güclü ordusu var, istənilən vaxt istənilən əməliyyatlar keçirilə bilər. Silahlı Qüvvələrin xüsusi təyinatlıları, əməliyyat qrupu var. Görünür, dövlət səviyyəsində buna gedilməlidir. Ola bilsin, bizim bilmədiyimiz nüanslar da var. İstəsələr bir günün içində Ohanyanın özünü də yatdığı yerdə girov götürə bilərlər. Sadəcə, hər hansı səbəbdən bunu istəmirlər. Görünür, hələlik ayrı variantlardan istifadə etmək məqsədəuyğun sayılır". R.Kərimoğlu Azərbaycanda "Rembo" kimi igidlərin olduğunu vurğuladı: "İstər Qarabağ müharibəsi dövründə, istərsə ondan sonra belə oğullar olub və var".



**Rey Kərimoğlu:** "İstəsələr bir günün içində Ohanyanın özünü də yatdığı yerdə girov götürə bilərlər"



**İlham Ağalarov:** "Birbaşa gedib türmədən adamları qaçırmaq da mümkündür"

**Keçmiş döyüşçü, korpus kəşfiyyatının sabiq komandiri, Türkiyədə "Komandos" məktəbini bitirmiş İlham Ağalarov isə "Yeni Müsavat"a dedi ki, indiki situasiyada agentura şəbəkəsini işə salıb kəlbəcərli girovları dəyişmək üçün hətta xarici ölkələrdəki erməniləri tutub gətirmək olar:** "Hətta Ohanyanın kənarda yaşayan qohumlarını axtarıb tapmaq, bura gətirmək olar. Yaxud xaricdə girov saxlayıb tələb qoymaq lazımdır ki, bizim adamları buraxsınlar". İ.Ağalarov konkret faktları xatırlatdı: "1993-cü ilin avqustunda kəşfiyyat taqımının komandiri, rəhmətlik Ələsgər Allahverdiyev Füzulinin Yuxarı Əbdürrəhmanlı kəndində həlak olmuşdu və meyiti də orda qalmışdı. Onun meyitini almaq istədikdə ermənilər rabitə ilə bizə familiyalar verdilər ki, həmin 4 nəfəri diri verin, sizin ölü və diriləri də qaytaraq. Ancaq biz diriləri tapa bilmədik, yalnız meyitlər var idi. Onda bizə 4 meyiti Rövşən Əkbərov verdi, 7-si də özümüzdə var idi, həmin 11 meyitlə Ələsgərin meyitini və Hadrutun Edili kəndində saxlanılan Mətləb müəllimi sağ-salamat geri aldıq. Bundan başqa, bizim Elşən adlı bir polis əməkdaşı 1993-cü ilin 23 oktyabrında itkin düşmüşdü. Onu maşını ilə bir yerdə aparmışdılar. Sonra mən Xankəndi polisinin 2 əməkdaşını tutdum, onlar Horadizdə mazut daşınmasına nəzarət edirdilər. O vaxt Horadiz cəbhə xəttindən 30 km uzaqda idi. Tutduğumuz zaman ermənilərin biri sərxoş idi, səs-küy saldı, öldürdük, o birisini gətirdik. Hətta düşmənin pusqusuna düşəndə onu da güllələmək istədik. Ancaq yalvardı, dedi, mənim xalam oğlu Stepanakert milisinin cinayət axtarış şöbəsinin rəisi işləyir, sizinkiləri mənimlə dəyişmək üçün kömək edə bilər. Elşən də xüsusi şöbədə işləyən bir şəxsin qaynı idi. Mən həmin erməninin Stepanakertdəki ev nömrəsini aldım. Leninqrad vasitəsilə Stepanakertə zəng edildi və erməninin anası ilə danışıldı. Anası dedi ki, mənim oğluma dəyməyin, Elşəni taparıq. Sonra həqiqətən də Elşəni keçmiş Martuni türməsindən tapdılar. Hətta deyirdilər ki, erməni milisin anası o vaxt Dağlıq Qarabağ rejiminə rəhbərlik edən Köçəryanın kabinetini dağıdırmış ki, "mənim oğlumu tapın gətirin". Sonra həmin ermənini Elşənlə Gürcüstan-Ermənistan sərhədində dəyişdilər. Hətta mən o ermənini təhvil verəndə qəbz almışdım, indiyədək saxlayıram".

**İ.Ağalarov deyir ki, o zaman müdafiə naziri olan Məmmədrəfi Məmmədov onunla şəxsən görüşəndə dəftərçəsini çıxarıb ordakı erməni familiyalarını oxuyub. Deyib ki, Moskvadan kimsə hansısa itkin ermənini axtarırmış:** "Ancaq həmin ermənilər bizdə olmadı. Biz yetim-yesiri o qədər tutmuşuq ki, heç yiyə duran olmayıb. Hətta erməni olub onu geri götürmək istəməyiblər. Yəni girov və əsirin də imkanı, arxa-dayağı olan adamı olmalıdır". Keçmiş kəşfiyyatçı şübhə etmir ki, Qarabağ və Ermənistandan erməniləri girov götürmək olar və belə oğullar var: "Birbaşa gedib türmədən adamları qaçırmaq da mümkündür. Amma o sonuncu variantdır. Ən yaxşı variant Rusiya variantdır. Ermənistan siyasi hakimiyyətinin Rusiyada kifayət qədər adamları var, onları tutub Kəlbəcər girovlarını geri istəmək mümkündür".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 47 (6075) 3 mart 2013



# Bu, adi qətldir, Puaro, Holms, Dronqo lazım deyil...

**Samir SARI**

**Qətldən sarsılıb-eləyən yox idi, sadəcə, maraqlıydı: heç kimlə işi olmayan bir əcnəbini gecə vaxtı niyə öldürsünlər ki... Gümanlar ona gedirdi ki, tamahkar canilər Conu soymaq istəyiblər, o da müqavimət göstərib, bunlar da məcbur olub öldürüblər.**

Ancaq sonra açıldı ki, Con elə belə Con deyil, Amerikadan gələn qeyri-hökumət təşkilatlarından birinin məsul təmsilçisi Elvis Con Maykdır.

Kriminalistlər bir az da danışdılar, anlaşıldı ki, Elvis qatillərinə qapını özü açıb. Yəni qatil və qurban tanış imişlər, hətta yeyib-içiblər də. Bu, yeni cığır idi.

Daha sonra mediaya informasiya sızdırıldı ki, cənab Elvis Con Mayk adi, sadə adam olmasa da, cinsi orientasiya baxımından qeyri-adi adam imiş. Yəni iddia olundu ki, seri öz partnyorları öldürüb.

Düzdür, bu informasiyadan sonra bizim bu heteroseksual ölkəmizdə amerikalı diplomatın qətlinə maraq azaldı və hətta "yaxşı eləyib öldürüblər o petuxu" kimi rəylər əmələ gəldi, amma yenə maraqlı idi ki, adamı nə üstə öldürüblər.

Jurnalistlər də dincəlmirdilər, paytaxtın kriminogen durumuna nəzarət edən yüksək rütbəli şəxsləri xeyirdə-şərdə görən kimi mikrofonları uzadıb Con Elvisin qətli barədə soruşurdular.

Qətldən iki-üç gün sonraydı, elə bir ayaqüstü brifinq zamanı şəhərin polis şefi böyük əmin-arxayınlıqla dedi: "Cənab Maykın qatili artıq tərəfimizdən tutulub və o, hadisəni məişət zəminində törətdiyini etiraf edib.

Axşam telekanallarda "o qatil gədə"ni göstərdilər. O, üzünə təzə-təzə tük gələn, əsgərliyə gedib-gəlmiş, yoxsa hələ indən belə gedəcəyi aydın olmayan, arıq, balacaboy bir gənc idi. Onu görən çox adam cənab Elvisi qınayırdı ki, o boyda vəzifə yiyəsinin zövqünə bax, bu boyda Bakıda özünə tapdığı "könül həmdəmi"nə bax!

Amma ta nə etmək olardı, qatil tapılmışdı. Və ölkədə artıq hamı inanırdı ki, cənab Elvisi bu qara, balaca oğlan, güman ki, qısqanclıq zəminində öldürüb.

Bu arada Amerikadan bu işi araşdırmaq üçün kriminalistlər qrupu da gəlmişdi və onlar şəhərin polis şefinin açıqlamasından sonra tələb etmişdilər ki, onları Elvis Conun qatili ilə görüşdürsünlər.

Görüş zamanı amerikalı kriminalistlərin böyüyü "qatil"ə bir-iki sual verəndən sonra deyib ki, bu uşaq qatil-zad deyil, bunu buraxın getsin, bizə əsl qatilləri göstərin.

Ondan bir az sonra FTB-nin əməkdaşları hətta belə bir açıqlama da verdilər ki, heç kəs Elvisin üstünə homoseksual adı qoymasın, kişinin oğlu normal adam olub.

Bəs qatillər tapıldımı? Tapılmadı, qətlin üstü bağlı qaldı.

Əlbəttə, amerikalı kriminalistlər olmasaydı, qətlin üstü açılacaqdı, yazıq o "qatil" mühakimə olunacaqdı. Bəlkə də artıq yatıb çıxmışdı.

Rusiyalı siyasətçi Boris Nemtsovun qətlinin açılması istiqamətində aparılan işlər adamın yadına cənab Elvisin işini salır.

İndi istintaq bəyan edir ki, Nemtsovun qətli peşəkarların işi deyil, bunu qeyri-peşəkarlar həyata keçirib. Guya ki, bir çox açıqlar buraxıblar, səhvlərə yol veriblər, ay nə bilim, müxtəlif patronlardan istifadə ediblər, daha nələr.

Onda sual çıxır ki, elədirsə, lap yaxşı, bu səhvlərdən yararlanaraq qətlin üstünü açın.

Amma yox. Olmur. Çünki kriminalistlər çox peşəkardırlar, erudisiya, intellekt, iti zəka aşıb-daşır. Onlar öyrəniblər ki, peşəkarlıqla həyata keçirilmiş qətllərin üstünü Erkül Puaro, Şerlok Holms, Dronqo kimi böyük ağıl, analitik təfəkkür-filan işlədərək açsınlar. Yaramaz qatillər isə Nemtsovu öldürərkən o qədər səhvə yol veriblər ki, at izi it izinə qarışıb.

Dünyanın kriminilastika tarixi hələ belə yaramazlıq görməyib. Adama deyərlər, vicdansız, o boyda siyasətçini öldürürsən, heç olmasa peşəkarlıqla öldür. Xalqın caniləri bir qətl, partlayış törədəndə kişi kimi ortaya çıxıb məsuliyyəti öz üzərinə götürür, sən onlardan artıq kişinin oğlusan, ay əclaf?

Bax, belə bir qəliz durum yaranıb.

İndi deyirlər, Amerika tərəfi də mat qalıb, fikirləşir ki, görəsən, Nemtsovu kim qətlə yetirib. Onlar qoysalar, əlbəttə, ruslar bu işi də eynilə bizimkilərin Elvisin qatilini tapdığı kimi tapa bilərlər.

**"Lamiyə işi" Şəmkirdə baş verən, lakin indiyədək araşdırılmamış bir çox cinayətləri, qanunsuzluqları ortaya çıxarıb. Şəmkirə növbəti səfərimiz zamanı Aslan Aslanovun qətlindən əvvəl və sonra rayonda baş verənləri araşdırmağa çalışdıq...**
**Şəmkir bazarının sahibi Elpərəst Həsənlinin başına gələnləri rayonda bilməyən yoxdur. Onun özü isə illərdir susub. Deyir ki, ərizə-şikayətlərinin qarşısını alıblar. Şikayətlərinin ölkə rəhbərliyinə çatmasını əngəlləyiblər.**

# "Aslan Aslanov məni zəhərlədib öldürmək istəyirdi"

## Şəmkir bazarının sahibi Elpərəst Həsənli: "Həmin vaxt Bayıl türməsində başıma oyun açırdılar..."





*(əvvəli ötən sayda)*

**İş adamı deyir ki, onu 20-ci kamerada olan vərəmli xəstələrin yanında saxlayırmışlar:** "3 gün 28 gün oldu. Həmin günlərdə oğlum Xəlilin xidmət etdiyi hərbi hissə komandiri Təbriz Dadaşovu da tutmuşdular. Onu da üzümə qoydular ki, guya məndən rüşvət alıb. Prokuror Təbriz Dadaşova 8 il, mənə 4 il cəza istədi. Hakim gəlib mənə 7 il cəza oxudu - yəni prokurorun istədiyindən 3 il artıq. Apelyasiya, sonradan Ali Məhkəmə də Aslan Aslanovun sifarişi ilə verilən həmin qanunsuz hökmü qüvvədə saxladı. Həmin vaxt Bayılda başıma oyun açırdılar".

**E.Həsənli iddia edir ki, Bayılda saxlanılarkən Aslan Aslanov ona zəhər verdirib:** "Bayılda olanda rejim rəisi gəldi ki, Aslan Aslanov təcridxananın qarşısında "nadzor" Adillə söhbət edir, ehtiyatlı ol. Az sonra Adil gəldi, yeməyimi verib dedi ki, ye. Çörəyimi yeyəndən yarım saat sonra mədəm qarışdı. Başa düşdüm ki, Adil məni zəhərlədi. Məni dustaqlar qatıq, çay sodası, marqansla xilas etdilər. 20 gün pis vəziyyətdə idim. Adil məni öldürə bilmədiyinə görə qəzəblənmişdi. Öldürmək üçün yollar axtarırdı. O vaxt Bayılda kimlərəsə sərf etməyən dustaqları taxta çəkiclə vururdular. Zəhərləyəndən sonra ölməmişdim deyə, Adil məni taxta çəkiclə vurdu. Zərbələr başıma, qabırğama, ayağıma dəymişdi. 4 qabırğam, ayağım, başım əzilmişdi. Huşumu itirmişdim. Zərbələrdən ağlımı itirmişdim. Bütün bunlar rəis müavini Ağammədlə rəis Dəmirin gözü qabağında olmuşdu. Onlar mənim müalicə olunmağıma da imkan vermirdilər. Sonradan məni 17 saylı cəzaçəkmə müəssisəsinə köçürdülər. Orada məni müalicə etdilər, sağaltdılar. Aslan orada da məni zəhərlətməyə nail oldu. Şairə adlı "nadzor" vardı, onun əli ilə zəhəri yeməyimə qatdırmışdı. Zülmlə ölümdən qurtardım".

### "Aslanın mənə verdirdiyi işgəncələrə görə bir ayağımı kəsiblər..."

**E.Həsənli 17 saylı cəzaçəkmə müəssisəsində 2 il 6 ay yatdığını deyir. Həmin dövrdə dəfələrdə zəhərlənib və əsassız yerə karsa salınıb:** "Orada Xaləddin adlı rəis müavini vardı. Aslan ona sifariş verirdi və o mənə köməkçisi vasitəsilə zəhər verdirmişdi. Xaləddinin köməkçisi mənə yemək çəkdi, qoydu qabağıma. Özünə də çəkib gətirdi. Onun boşqabını aldım qoydum qabağıma. Dedim, mənə çəkdiyin yeməyi ye. Qoydu qaçdı".

**E.Həsənli 2 il 6 ay cəza çəkəndən sonra əfvlə azad olunub**: "Aslan mən həbsdə olarkən oğlum Xəlili öldürtmək istəyirdi. Ona görə də oğlumu saxta ittihamla tutdurmağa nail olmuşdu. Zamində olan oğlum sifarişli həbsdən qurtulmaq üçün Rusiyaya qaçdı. 2006-cı ilin oktyabrında əfvlə azad edildim. 2007-ci ildə oğlum gəldi və həbs edildi. Onu Bayıla aparmışdılar, qabağına Adillə Ağamməd çıxmışdı. Demişdilər ki, atan bura 3 günlük gəlmişdi, 7 il "srok" aldı. Sən də 3 günlük gəlmisən, bilmək olmaz nə vaxt buradan çıxacaqsan. Atana de, bizə pul gətirsin. Bütün bunlar Aslanın sifarişi ilə olub. Bu illər ərzində Aslan vəzifədə idi. Şikayətlərimin qarşısını alırdılar. Aslanın mənə verdirdiyi işgəncələrə görə bir ayağımı kəsiblər. Aslan məni bu günə saldırıb. Bazarım 10 ildir bağlıdır. Restoranım əlimdən çıxıb. Mən Baş Prokurorluğa müraciət edirəm ki, dediklərimi araşdırsınlar".

❑ **"Yenì Müsavat"ın Reportyor qrupu**

# Şəhid anasının çörəyi əlindən alındı

## Sitarə Mikayılova: "Mənə dedi ki, bir şəhid ailəsi vəsiqəsi götürüb dilənçi kimi düşmüsən qapılara, bununla heç nə əldə edə bilməyəcəksən"

**68 yaşlı şəhid anası, Şirvan şəhər sakini Sitarə Mikayılova dövlət tərəfindən ona verilən çörək dükanının əlindən alınması ilə bağlı "Yeni Müsavat"ın redaksiyasına şikayət edib. Şikayətçinin sözlərinə görə, 1993-cü ildə oğlu Vahid Mikayılov şəhid olduqdan sonra Şirvan şəhəri, Gülbala Şıxbalaoğlu küçəsi, 4 nömrəli mağazanın 2 nömrəli filialında yerləşən çörək dükanı Mikayılovlar ailəsinə verilib.**




Qeyd edək ki, Sitarə Mikayılovanın oğlu Vahid Mikayılov 1992-ci ildə Füzuli uğrunda gedən döyüşlərdə şəhid olub və hökumət şəhid ailəsinə kömək məqsədilə bu dükanı onlara verib.

Sitarə Mikayılova deyir ki, 2000-ci illərin əvvəllərinə qədər onlar mağazanı işlədiblər. Son bir neçə ildə isə istifadəsiz qalıb. Bu müddətdə yandakı dükanın sahibi Əziz Əliyev öz dükanının ərazisini böyüdərək Mikayılovların dükanının ərazisinə keçib. İndi Mikayılovlar öz dükanlarını özəlləşdirmək istəsələr də, Ə. Əliyev onların yerini zəbt etdiyindən obyekti planda nəzərdə tutulan qaydada özəlləşdirə bilmirlər. Əmlak Komitəsindən ailəyə bildirilib ki, obyektin özəlləşdirilməsi üçün ilk növbədə məhkəmə qərarı ilə Əziz Əliyevin dükanın zəbt etdiyi hissəsindən çıxması lazımdır.

Şikayətçilər deyir ki, qarşı tərəf -Əziz Əliyevin kürəkəni Ruslan Mirzəyev həmin rayonda vəkildir və yuxarı dairələrlə yaxın münasibətləri var. Əziz Əliyev də onun imkanlarındna istifadə edərək özünə məxsus olmayan əraziyə keçib.

Sitarə Mikayılovanın sözlərinə görə, öncəki məhkəmə qarşılaşması zamanı vəkil Ruslan Mirzəyev onu şəhid anasına layiq olmayan sözlərlə təhqir edib: **"Mənə dedi ki, bir şəhid ailəsi vəsiqəsi götürüb dilənçi kimi düşmüsən qapılara, bununla heç nə əldə edə bilməyəcəksən. Bu söz məni çox yandırdı. Mən bu vətən üçün övladımı qurban vermişəm. Ancaq bu ölkədə haqqımı qoruya bilmirəm".**

Sitarə Mikayılovanın qardaşı Ağaşükür İmanov deyir ki, bir müddət öncə Ə.Əliyevi onlara aid olan ərazini boşaltması üçün məhkəməyə veriblər, hələ ki məhkəmə keçirilməyib: **"Dəfələrlə Əmlak Komitəsinə, son olaraq Ədliyyə Nazirliyinə müraciət etmişik. Ancaq hələ ki cavab verilməyib. İnanırıq ki, bu iş ədalətlə həll olunar".**

Qeyd edək ki, Mikayılovlar ailəsi 10 nəfərdən ibarətdir və bu dükan ailənin yeganə ümididir.

Yazıda adıçəkilən digər şəxslərin də mövqeyini dərc etməyə hazırıq.

❑ **Nərgìz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 47 (6075) 3 mart 2015


Məhərrəm Səfərli


Vüqar Bayramov

# AZAL-ın yeni qiymətləri turizm şirkətlərini "batırdı"

## Vüqar Bayramov: "AZAL-ın biletlərindəki artım tempi heç bir halda devalvasiya faizindən artıq olmamalıdır"

**Avronun məzənnəsinin manata nisbətdə bahalaşması təyyarə biletlərinin də qiymətinin artmasına səbəb olub. Demək olar ki, bütün istiqamətlərdə uçuş qiymətləri 30-40 faiz artıb. Bəzi reyslərə isə biletin qiyməti 50-60 faiz bahalaşıb.**

AZAL rəsmiləri də aviabiletlərin qiymətinin artmasını manatın yumşalması ilə əlaqələndirirlər. **"Azərbaycan Hava Yolları" ("AZAL") QSC-nin mətbuat xidmətinin rəhbəri Məhərrəm Səfərlinin** sözlərinə görə, AZAL təyyarə biletlərinin qiymətini qaldırmayıb. Manatın avroya nisbətən ucuzlaşması səbəbindən hazırkı məzənnələrə uyğun olaraq, qiymətlər dəyişib.

Məhərrəm Səfərlinin sözlərinə görə, istər beynəlxalq, istərsə də yerli uçuşların tarifləri əvvəlki kimidir, sadəcə olaraq, bu tariflər avro ilə hesablandığı üçün bu valyutanın bahalaşması qiymətlərə də adekvat təsir göstərib.

**İqtisadçı ekspert Vüqar Bayramov da "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, aviabiletlərin qiyməti avro ilə hesablandığından qiymət artımı devalvasiyanın nəticəsidir:** "Beynəlxalq praktikaya görə, region ölkələrində, o cümlədən Azərbaycanda aviareyslərin xərci yerli valyuta ilə deyil, avro ilə hesablanır. Faktiki olaraq, hazırda Azərbaycan da daxil olmaqla, regionda aviabiletlərin qiyməti avro ilə təklif olunur və yerli valyutaya çevrilir. Avro əsas hesablama vasitəsidir və avronun manata nisbətən məzənnəsinin dəyişməsi birmənalı şəkildə manata çevrildiyində xərcin artmasına gətirib çıxarır. Dünya bazarında avronun dollara nisbətən məzənnəsində azalmalar müşahidə olunur. Ancaq Azərbaycan manatının dollara nisbətən məzənnəsi yumşaldığına görə, bu, manatın avroya nisbətən məzənnəsinin yüksəlməsinə gətirib çıxartdı. Ancaq bütün hallarda bu aspektdən AZAL-ın təklif etdiyi təyyarə biletlərinin qiymətlərində artımların olması gözlənilən idi".

**İqtisadçı ekspert onu da bildirdi ki, aviaşirkətlərin xərcləri avro ilə hesablandığı və bütün tariflər avro ilə ödənildiyi üçün avronun məzənnəsinin yüksəlməsi birmənalı şəkildə bu xərcin manatla ifadəsində artmasına gətirib çıxarır:** "Bu, manatın dollara nisbətən devalvasiya faizinə uyğun olaraq həyata keçirilməlidir. İndiki məqamda AZAL-ın biletlərindəki artım tempi heç bir halda devalvasiya faizindən artıq olmamalıdır. Praktik olaraq, AZAL-ın biletlərinin devalvasiya faizindən artıq olması üçün iqtisadi əsas yoxdur. Razılaşmaq lazımdır ki, gələcəkdə manatın avroya nisbətən məzənnəsinin necə dəyişməsindən asılı olaraq AZAL-ın təklif etdiyi qiymətlərə baxılması və dəyişilməsi mümkündür. Gələcəkdə manatın avroya nisbətən məzənnəsinin möhkəmlənməsi müşahidə ediləcəksə, o zaman mütləq AZAL biletlərin qiymətlərinin azalmasına baxmalıdır. Avronun dollara nisbətən məzənnəsi aşağı düşür və 2015-ci ildə Avropa Mərkəzi Bankı təxminən 10 faizə yaxın yumşalma proqnozlaşdırır. AZAL devalvasiya faizindən artıq qiymət müəyyənləşdirməməlidir, çünki bunun üçün iqtisadi əsas yoxdur".

**Aviabiletlərin bahalaşmasının turizmə təsirinə gəlincə, iqtisadçı bildirdi ki, bu təsir o qədər də ciddi olmayacaq:** "Azərbaycandan xaricə dincəlməyə gedənlərin, eləcə də xaricdən Azərbaycana gələnlərin bir qismi Türk Hava Yollarının xidmətindən istifadə edir. Bu baxımdan Azərbaycan turistləri və ölkəmizə gələn xarici turistlər üçün Türk Hava Yollarında biletlərin qiymətlərinin dəyişməsi daha önəmlidir. Türk Hava Yollarının İstanbul üzərindən çox geniş şəbəkəsi var. AZAL-ın şəbəkəsi Türk Hava Yolları ilə müqayisədə xeyli zəifdir. AZAL vasitəsilə tranzit olaraq digər ölkələrə uçmaq praktiki olaraq mümkün deyil. Ona görə mən düşünmürəm ki, bu, Azərbaycana gələn turistlərin sayına ciddi təsir göstərəcək. Türk Hava Yollarının qiymətlərində baş verən dəyişiklik Azərbaycana gələn turistlərin sayına daha çox təsir göstərəcək".

AZAL-ın təyyarə uçuşlarında qiymətlərin artması ölkədəki turizm şirkətlərinin fəaliyyətinə də təsirsiz ötüşməyib.

**Turizm şirkətlərində hazırkı durumu öyrənmək üçün bir neçə şirkətlə əlaqə saxladıq. "CTS" turizm şirkətinin özünü təqdim etməyən əməkdaşı bildirdi ki, avronun manata olan məzənnəsinə uyğun olaraq aviabiletlərin bahalaşması onların müştərilərinin sayını kəskin azaldıb:** "Qiymətlərdə 30-35 faiz artım olub. Bu da bildiyiniz kimi, avronun məzənnəsi ilə bağlıdır. Məsələn, əvvəllər İstanbula uçuş 270-290 manat idisə, indi bu, 350 manata qalxıb. Dubay istiqamətindəki uçuşlar 300 manatdan 332 manata yüksəlib. Ən çox bahalaşma isə tranzit reyslərdədir. Türk Hava Yolları ilə olan tranzit reyslərdə əvvəllər 500-550 manata olan aviabiletlər indi 650-700 manata təklif olunur. Qatar Hava Yolları aviaşirkəti ilə olan uçuşlar əvvəllər 700 manata başa gəlirdisə, indi 900 manata baş gəlir. Həmçinin Antalya, Bodrum və İzmirə yeni açılan reyslər əvvəl 450-500 manata təklif edilirdisə, artıq 670 manata təklif olunur".

**Turizm şirkəti nümayəndəsinin sözlərinə görə, bu qiymət artımı müraciət edənlərin sayına da kəskin təsir edib:** "İnsanlar bir anda bu bahalaşmadan təşvişə düşdülər. Bu da müraciətlərin sayını azaltdı. Əvvəllər gün ərzində 10 nəfər müraciət edirdisə, indi bu 3-4 nəfərə qədər azalıb. Çünki əvvəl orta səviyyəli və daha imkanlı ailələr xaricə dincəlməyə gedirdisə, indi orta imkanlı ailələr bir daha düşünməli olacaq. İl ərzində 3 dəfə xaricə gedənlər bunu birə endirəcək, ixtisara salacaq".

**Şirkət nümayəndəsinin sözlərinə görə, manatın kəskin ucuzlaşması da onlara itkilər hesabına başa gəlib:** "Satdığımız bəzi paketlərin qiymətini ödəməmişdik və dolların bahalaşması ilə bir gecədə yüzlərlə manat ziyana düşdük. Çünki alıcıya köhnə məzənnə ilə satmışdıq, özümüz isə xərcləri yeni məzənnə ilə ödəməli olduq. Həmçinin sifarişlər manatla hesablandığından bir çox müştərilərimiz bir gün sonra eyni paket üçün daha çox ödəməli oldular".

**"Turan" turizm şirkətinin nümayəndəsi Qafqaz Bilalov da manatın devalvasiyasından ziyan çəkdiklərini bildirdi:** "İlk növbədə onu qeyd edim ki, müraciətlər kəskin azalıb. Dolların yeni kursu ilə hesablayanda paket turlar 30 faiz baha başa gəlir, bu səbəbdən insanlar imtina edirlər. Digər tərəfdən, manatın ucuzlaşmasından öncə satdığımız bir çox turpaketlərinin xərclərini xarici şirkətlərə ödəməmişdik. Bu səbəbdən daha çox xərcimiz çıxdı. Bu da işimizə mənfi təsir edir".

❑ **Nərgiz LİFTİYEVA**

# Ticarət mərkəzlərində bahalaşma anonsu

## "Sədərək", "Binə" və "Karvansaray"da bir gecənin içində müflis olanlar var; manata görə qiymətlərin müvəqqəti ucuzluğu izdiham yaradıb, gələn həftədən isə bahalaşma qaçılmazdır





**Paytaxtın "Sədərək" bazarında həftəsonu canlanma müşahidə olunurdu. Hələ ki ticarət mərkəzində köhnə qiymətlər qüvvədədir. Gələn həftədən etibarən isə manatın kursunda edilən dəyişikliyə görə qiymətlər bahalaşacaq.**

Sahibkarlar belə danışırlar. Onların sözlərinə görə, əldə qalan malları köhnə tariflə satıb yekunlaşdırandan sonra yeni qiymət cədvəli müəyyən olunacaq. Manatın devalvasiyası ucbatından bir gecənin içində külli miqdarda zərər edən ticarətçilər deyirlər ki, qiymət artımından savayı çarə qalmayıb. Xaricdən gətirilən malların bahalaşacağını söyləyən ticarətçilər qeyri-ixtiyari olaraq "Sədərək"də qiymətlərin qalxacağını qeyd edirlər.

Bu vəziyyətin onların iradəsindən asılı olmadığını deyən sahibkarlar gözləyirlər ki, dollar azca ucuzlaşsın. Onlar bildirirlər ki, bazar günü olduğuna görə yarmarkada adam nisbətən çoxdur. Adi günlərdə müştəri qıtlığı hökm sürür. Hazırda yer haqları qalxmayıb.

Ticarət mərkəzinin sahibi manatın ucuzlaşmasını nəzərə alaraq ticarətçilərə müvəqqəti güzəşt edib. Ona görə də qiymətlər xeyli dərəcədə ucuzdur. İstər məişət əşyaları, istər geyim olsun, qiymətlər çox münasibdir. Son xəbər isə ondan ibarətdir ki, sahibkarlar bahalaşma dalğasına hazırlaşır. Bu malları əldən çıxarandan sonra yeni məhsulların qiymətinə uyğun olaraq tariflər dəyişəcək.

**Ev əşyaları satan Müslüm deyir ki, hər kəs ucuzlaşma xəbərini eşidərək axın edib:** "Əlimizdə qalan nə varsa su qiymətinə satırıq. Camaat bu fürsətdən istifadə edir. Sonra gec olacaq. Təzə qiymətlə bu qabı indi 14 manata satıramsa, 18-20 manata satacam".

**Qadın çantası satan satıcı isə 25 manata təklif etdiyi malın gələn həftədən 35 manat olacağını deyir:** "Biz çox ziyan elədik. Mənim 2 min manatım batdı. Banklar əvvəldən bilirdi ki, nə olacaq, ona da hazırlaşmışdılar. Bizə xəbərdarlıq olunmadı ki, manat düşə bilər. Bir də səhər eşitdik ki, qərar veriblər. Məcbursan malı ucuz satasan".

Kürk satanların isə alveri ölməkdədir. Bu, təkcə böhranlı vəziyyətlə əlaqələndirilmir. Yaz fəslinin gəlməsi artıq şuba alıcılarının sayına kəskin surətdə təsir edib. "Karolina valiant"la yanaşı keyfiyyətcə ondan geri qalan "Kraliça" adlı mağaza kürkləri bayıra çıxarıb satır. Müştəri cəlb etmək üçün daha münasibt qiymətlər təklif edirlər. Satıcıların sözlərinə görə, indi əldə nə varsa dəyər-dəyməz qiymətinə satmaq zamanıdır.

"Qardaş, səhər oyandım gəldim işə. Uşaqlar dedi ki, manat ölüb, dollar qalxıb. Elə bil başıma qaynar su tökdülər. Bax bir dəqiqə içində hesabladım 6 min manat ziyan eləmişəm. Bizə olan heç kimə olmadı. İndi gözümüzü dikmişik ki, bu malları sataq, əldən çıxsın. Sonra təzə partiya mal gələcək, görək onda necə olacaq. Ancaq sizə deyim ki, gedin, nə qədər ucuzdur alın. Sonra hər şey qalxacaq,"-deyə qış geyimləri satıcısı Vüsal belə deyir.

Onu da deyək ki, Rusiyadan gətirilən malların alıcılıq qabiliyyəti aşağı düşüb deyə yarmarka daha da böhrana girib. Oxşar situasiya yaxınlığındakı "Binə" ticarət mərkəzində də yaşanır. Habelə Lökbatanda "Karvansaray" bazarında analoji vəziyyət hökm sürür.

Onların sözlərinə görə, Dağıstandan müştəriləri daha çox olurdu, indi onlar Moskvaya yönəliblər. Onu da bildirək ki, Bakı bazarlarında yaranmış durğunluq "Diqlas" və "Lotos"dan da yan keçməyib. 8-ci kilometr qəsəbəsi ərazisində yerləşən hər iki ticarət mərkəzində alıcılıq qabiliyyəti aşağı düşüb. Vəziyyətin pisləşməsi endirim kampaniyaları başlatmağa səbəb olub.

2014-cü ilin əvvəlində Bakı Metropolitenində Tağı Əhmədov erası bitəndə yüzlərlə xırda ticarətçi işsiz qaldı. Onları islahat adı ilə metro keçidlərindən qovdular.

Ticarət mərkəzlərinin zirzəmisində yerləşən qarajların təyinatı çevik şəkildə dəyişdirildi, orada piştaxtalar quraşdırıldı. İndi onların da işi ölüb.

❑ **E.SALAMOĞLU**

**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 47 (6075) 3 mart 2015

# Bu gün Od çərşənbəsidir

## Ənənəyə görə tonqal qalanmalı və üstündən tullanılmalıdır...

**Novruzun gəlişini xalqımız həmişə xüsusi hazırlıqla qeyd edib. Novruza hələ bir ay qalmış, yəni Kiçik Çillənin çıxması ilə el-obada hazırlıq görülər, bağ-bağçada təmizlik aparılar, həyət-baca səliqəyə salınar, xüsusilə də kənd yerlərində xalça, palaz yuyular, ev-eşik ağardılar.**

Bir sözlə, insanlar Novruzu xüsusi təmtəraqla qarşılamağa çalışardılar. Novruzdan əvvəlki son 4 çərşənbəyə xüsusilə Azərbaycan mədəniyyətində ayrı bir əhəmiyyət verilir.

Bu gün boz ayın ikinci çərşənbəsi - Od çərşənbəsidir. Xalq arasında bu çərşənbəyə "Üsgü çərşənbə", "İkinci çərşənbə", "Addı çərşənbə" də deyirlər. Zərdüşt görüşlərindən hələ çox-çox əvvəl insanlar təbiəti canlandıran, torpağı isidən Günəşi, onun yerdəki simvolu olan odu təsəvvürlərində rəmzləşdiriblər. Belə bir etiqad yaranıb ki, insanlar Günəşi və odu nə qədər əzizləsələr, oxşasalar, təbiət o qədər tez isinər, adamlara xoşbəxtlik gətirər. Hələ qədimdən xalqımızın Günəşə, oda böyük inamı olub. Bu səbəbdən də odu qoruyub saxlamaq adətə çevrilib. Bəzən odu zərdüştlükdən gələn sitayişlə, etiqadla qarışdırırlar.

Amma Novruz bayramının tarixi zərdüştlükdən də, İslamdan da çox qədimdir. Bayram çərşənbələrində yandırılan tonqalın atəşpərəstliklə heç bir əlaqəsi yoxdur. Atəşpərəstlikdə odun üstündən tullanmaq, hətta ona nəfəs vermək belə, günah sayılıb. Atəşpərəstlər odun ətrafına fırlanarkən üzlərinə niqab bağlayıblar ki, nəfəsləri oda toxunmasın. Novruzda isə odun üstündən tullanaraq "Ağrım-uğrum oda tökülsün, yansın, canım dərddən, qəmdən, ağrı-acıdan qurtulsun" - deyirlər.



Od çərşənbəsinin səhəri insanlar sübh tezdən durar, Günəşin doğmasını səbirsizliklə gözləyərdilər.

Tədqiqatçılar yazırlar ki, qədim dövrlərdə hətta Günəşi salamlamaq üçün xüsusi nəğmələr oxuyar, tonqallar yandırıb ətrafında dövrə vurar, sonra da o tonqaldan hərə bir məşəl götürüb öz ocaqlarını alışdırmaq üçün evlərinə tələsərdi. Kənd yerlərində bütün kəndi od çərşənbəsinin olması ilə bağlı agah etmək üçün həmişə dağların başında tonqallar qalanarmış. Əgər dağlar olmasa, hündür yerlər seçərək o hissələrdə tonqalın qalanması daha məqsədəuyğun hesab olunurdu.

Digər çərşənbələrdə olduğu kimi Od çərşənbəsi günündə də qazanlar qaynamalı, ocaqların üstü boş qalmamalıdır. Süfrəyə quru meyvələr, müxtəlif şirniyyatlar, su, süd mütləq qoyulmalıdır. Bütün çərşənbələrdə süfrənin şahı plovdur. Süfrədə xonça bəzənməli və şamlar yandırılmalıdır. Şam istiliyin, odun, işığın qorunub saxlanması, səadətin rəmzidir. Ona görə də hər kəs Od çərşənbəsini şad, şən və bolluq içində keçirməyə can atır. Səməni isə ancaq Axır çərşənbədə və Novruzda süfrəyə qoyarlar.

Od çərşənbəsində də insanlar bir-birinə qonaq gedər, "Çərşənbən mübarək" deyər, "Ağrın, acın odda yansın, Yel dərd-qəmini aparsın" söyləyərlər. Bu alqışlar həm də ona işarədir ki, qarşıdakı əziz gün Yel çərşənbəsi olacaq. İstiliyin qorunması, istiliyin yenidən qayıdıb torpağa hopması, torpaqda istiliyin başlanması və nəhayət, əmək mövsümünün başlanması üçün torpağa məhsul əkininə hazırlıq ənənələri Od çərşənbəsində əksini tapır. Atmosferin, havanın istiliyi, insan bədənində, ağacın bətnində, torpaqda istilik və nəhayət, bütün bu istiliklərin məcmusu olan odun qorunub saxlanması, odun əldə olunması və bununla insan həyatının dəyişməsi görüşləri bu çərşənbə etiqadlarında bu və ya digər şəkildə özünü əks etdirir.

Novruzun şehli çəmənlərlə atılan sayalı qədəmlərindən biri də məhz bu mərasimlərdə bayram xonçaları ilə bərabər, nişan məclislərinin də qurulmasıdır. Deyilənə görə, çərşənbə axşamlarının qəribə qüdrəti var. Xüsusilə də Od çərşənbəsində qızların yanağı alışıb yanar, çəmən çiçəklərinə bənzəyərlər. Oğlanların isə sinələrində odlu ürək döyünər. Bu çırpıntıların mənasını isə Novruz bayramlarında evdən-evə qırmızı örtüklü xonçalarda gedən sovqatlar açıqlayar.

Sudan içdik, oddan keçdik, indi üzü küləyə sarı gedirik.

Od çərşənbəniz mübarək!

❑ **Günel MANAFLI**

# Bakı nömrəsi Azərbaycanın istənilən bölgəsində işləyəcək

**Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom"İstehsalat Birliyi innovativ texnologiyaların tətbiqi nəticəsində sabit telefon şəbəkəsi tarixində ilkə imza atıb.**

İB-dən "Trend"ə verilən məlumata görə, daim müştərilərinə keyfiyyətli xidmətlər göstərməyi hədəfləyən "Aztelekom" İB bu siyahıya növbəti xidməti əlavə edib.

Onların müştəriləri əhalinin bütün təbəqələrini əhatə etdiyindən, "585"-"Daşınan şəhər telefon xidməti" müştərilərə rahatlıq, operativlik və sevinc gətirəcək: "Bakı şəhər şəbəkəsi statusuna malik sabit telefonlar artıq bölgələrdə də 585 indeksi ilə eyni statusla işləyəcək.

Belə ki, regionlardakı hər bir müştərimiz Bakı şəhər telefonlarından istifadə edə biləcək. Alternativi olmayan bu xidmət nəticəsində Bakı şəhər telefon nömrəsi respublika ərazisində istənilən yerə daşınacaq.

Şəhərlərarası, şəbəkədaxili və simsiz telefon şəbəkəsi (CDMA) ilə ödənişsiz danışıqlar aparmaq mümkün olacaq. Bununla da daha dayanıqlı rəqəmsal rabitə yaranacaq və rabitə sahəsində ilk dəfə "şəhər-kənd" arasında rəqəmsal uçurum yox olacaq.

Daşınan telefonlarla respublikanın bütün (Naxçıvan MR istisna olmaqla) ərazisində bir-biri ilə limitsiz və pulsuz danışmaq mümkündür. Ayda 15 manat abunə haqqı ödəməklə 585 indeksli ilə telefonlara sahib olmaq fürsətindən yararlana bilərsiniz".



# Bakıda yağış yağacaq

**Azərbaycanın bəzi ərazilərinə yenidən qar yağacaq. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən xəbərə görə, martın 3-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Bəzi yerlərdə fasilələrlə yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək.**

Havanın temperaturunun gecə 3-5, gündüz 7-10 dərəcə isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında martın 3-də fasilələrlə yağış yağacağı, dağlıq və dağətəyi rayonlarda sulu qar , qar yağacağı gözlənilir. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 1-6, gündüz 8-13 dərəcə isti, dağlarda gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 3-8 dərəcə isti olacaq.

# Hüseynov Sadıq Yusif oğlu



**1939-cu ildə Kəlbəcər rayonunun Bağırlı kədində anadan olub. 1961-ci ildən Bakı şəhərində yaşayır. Onun bu yaxınlarda "Duman düşür yadıma" kitabı işıq üzə görüb. Bundan öncəki kitabının adı isə "Birdə Kəlbəcərə gedim-getməyim"dir.**




**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (*enurez*)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

**Təcili satılır**

**Lökbatan qəsəbəsinin mərkəzində, H.Əliyev parkının yanında 220.kv.m evrotəmirli, 2 mərtəbəli, 7 otaqlı döşəməsi parket, qapıların və pilləkənləri palıd ağacından, telefonu, qarajı, hamamı, mətbəxi, həyətində meyvə ağacları olan 3 sot torpağın üzərində tikilmiş villa**

TƏCİLİ SATILIR.

**3-cü mərtəbəni də tikmək olar (mansard).**
**Qiyməti razılaşma yolu ilə (Real qiymətdən ucuz)**
**Əlaqə telefonları**: 077 - 769 - 59 - 10; **070** - 365 - 98 - 40; 012 - 497 - 43 - 04

**Elan**

**Jeleznovodsk şəhəri, stansiya Beştau, Qlinki-15 ünvanında ikimərtəbəli binanın 1-ci mərtəbəsində tam təmirli 2 otaqlı mənzil, kombi sistemi ilə təchiz olunub, avadanlıqları ilə birlikdə Bakı şəhərinin istənilən yerində mənzillə dəyişdirilir. Əlaqə nömrəsi: +79283706928**

YENİ MÜSAVAT
N 47 (6075) 3 mart 2015





“Yeni Müsavat”ın ötən sayında “Heydər” məscid-kompleksinə rəhbər təyin olunması haqda xəbər vermişdik. Qeyd edək ki, bu posta Qafqaz Müsəlmanları İdarəsi (QMİ) sədrinin müavini, Bakı İslam Universitetinin rektoru Hacı Sabir Həsənli (Bakı Şəhər İcra Hakimiyyətinin nəzdində yaradılmış “Heydər” Məscidi Kompleksi İdarəsinin sədri) təyin edilib.

# Hacı Sabir Həsənli yeni təyinat yerində yoxdur - məscid də işləmir

## “Heydər” məscid kompleksi hazır olsa da, qapıları hələ də bağlıdır, yeni rəhbər məscidə gəlməyib, məscidi hərbi geyimli mühafizəçilər qoruyur

**“Yeni Müsavat”ın ötən sayında “Heydər” məscid-kompleksinə rəhbər təyin olunması haqda xəbər vermişdik. Qeyd edək ki, bu posta Qafqaz Müsəlmanları İdarəsi (QMİ) sədrinin müavini, Bakı İslam Universitetinin rektoru Hacı Sabir Həsənli (Bakı Şəhər İcra Hakimiyyətinin nəzdində yaradılmış “Heydər” Məscidi Kompleksi İdarəsinin sədri) təyin edilib.**

Yazıda QMİ sədri Şeyxülislam Hacı Allahşükür Paşazadənin lap əvvəldən bu təyinata qarşı olduğu və ölkənin ən böyük məscid-kompleksinə öz adamını rəhbər təyin etdirmək istədiyini yazılıb. Ancaq sonda şeyxin bu arzusunun qarşısı alınıb və Hacı Sabir Həsənli təyin olunub.

Məlumatda qeyd olunur ki, fevralın 28-də QMİ-də keçirilən toplantıda Şeyx Hacı Sabirin yeni məscid-kompleksə sədr təyin olunduğunu elan edib. O da bəlli olub ki, “Heydər” məscidinin icması olmayacaq və kompleksə bir nəfər rəhbərlik edəcək, ibadəti bir neçə axund və imam aparacaq, sədr isə ümumi rəhbərliyi həyata keçirəcək, təsərrüfat işlərinə nəzarət edəcək.

O da məlum olub ki, Hacı Sabirin namizədliyi QMİ sədri deyil, məscid-kompleksin əsl sahibi olan Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən gəlib. Yeri gəlmişkən, yeni məscid-kompleksin həyətində çoxlu sayda mərasim zallarının olduğu bildirilir. Bina BŞİH-in balansında olduğu üçün mərasim zalları da BŞİH tərəfindən idarə olunacaq.

Ötən gün yeni təyinatdan sonrakı vəziyyət, rəhbərliklə görüşmək üçün Binəqədi rayonu ərazisində yerləşən “Heydər” məscid-kompleksinə yollandıq. Əvvəlcə onu qeyd edim ki, məscid çox geniş sahəni əhatə edir, böyük həyətə və məscidin öz binası ilə yanaşı böyük bir tikili kompleksinə sahibdir. Ətrafda çoxlu sayda yardımçı tikililər, arxada isə 4 mərtəbəli mərasim zalları olacaq ayrıca tikili var.

Ancaq ötən ilin dekabrında açılışı olmasına rəğmən hazırda məscidin qapıları bağlıdır, kompleksə qalxan pilləkənlər və eskalatorun qarşısı lentlə qapanıb. Kompleksin həyətində bir neçə nəfər gəzintiyə çıxmış insanlar vardı. Eyni zamanda həyətdə hərbi geyimli mühafizəçilər dolaşır. Mühafizəçilər rəhbərlikdən heç kimin olmadığını, Hacı Sabirin də məscidə gəlmədiyini bildirdilər. Yardımçı otaqlarda tapdığımız, özünü tikintiyə nəzarət edən briqadir kimi təqdim edən bir nəfər dedi ki, Bakı Şəhər İcra Hakimiyyətinin sifarişi əsasında işləyirlər. Özünü təqdim etməkdən, şəkil çəkdirməkdən imtina edən briqadir bildirdi ki, layihə rəhbəri hazırda məsciddə yoxdur. Onu da dedi ki, məscid hazır olsa da, hələlik BŞİH istifadəyə icazə vermir, çünki bəzi tamamlanmamış işlər qalıb.

Qeyd edək ki, məscidin binasında hansısa təmir işləri aparılmırdı. Lakin ətrafdakı yardımçı tikililərdə, o cümlədən mərasim zallarının yerləşəcəyi binada təmir işləri davam edirdi. Məscid-kompleks bütün parametrlərinə görə bu günə qədər olan tikintilərdən kəskin dərəcədə fərqlənir. Sırf Azərbaycan memarlığı üslubunda, milli ornamentlərlə bəzədilmiş son dərəcədə gözəl və göz oxşayan naxışlarla bəzədilib. Məscidin fasadında və daxilində Şirvan memarlıq ənənələrinə uyğun olaraq oymalarla yüksək xəttatlıqla ayələr və surələr yazılıb. Əsas qapı isə qızılı rənglərlə rənglənib. Bir sözlə, bu günə qədər Azərbaycanda inşa olunmuş ən gözəl bir ibadət ocağıdır. Yeri gəlmişkən, açılış zamanı verilən məlumata əsasən məsciddə eyni anda 4 min nəfər ibadət edə biləcək. Məsciddə qadın və kişilərin ibadət etməsi üçün ayrıca zallar var. Kompleks isə bütövlükdə 1,3 hektar ərazini əhatə edir.

“Heydər” məscidində 72 metr hündürlüyü olan 4 minarə var, günbəz isə 55 metr hündürlüyündədir. Dövlət başçısı ilkin olaraq 10 milyon manat ayırsa da, görünən odur ki, kompleksin tikintisinə daha böyük məbləğdə vəsait xərclənib. İş icraçıları nə qədər vəsait xərclənməsi haqda məlumatsız olduqlarını deyirlər.

Onu da öyrəndik ki, hazırda təmir işləri aparılan mərasim zalları olan binada 3 mərtəbədə hər birində bir neçə mərasim zalı olacaq. Ancaq hələlik hazır olduğu üçün zallarla bağlı şərtlər, işlədəcək şəxslər məlum deyil. İş icraçıları onu da bildirdilər ki, tikinti ilk gündən etibarən BŞİH-in nəzarətindədir, QMİ ilə heç bir bağlantısı yoxdur. Onu da bildirdilər ki, Hacı Sabirin kompleksə direktor təyin olunmasından televizordan xəbər tutublar. Lakin hələlik yeni sədr kompleksə gəlməyib.

Məsciddən çıxanda artıq günorta namazının vaxtı idi, lakin yeni məsciddə azan verilmədi. Deyəsən, ilk dəfə idi ki, bu əraziyə gələn bir cavan oğlan məsciddə ibadət etmək istəsə də, ona bildirdilər ki, hələlik kompleksdə namaz qılmaq mümkün deyil.

❑ **KƏNAN**

# Mağazalarda süni bahalaşmanın gizli üsulu

## Marketlərdə vitrin qiymətləri ilə kassadakı qiymət arasında böyük fərqlər var; mağaza sahibləri səbəbi həm də “Azərsun”un yerli məhsulları bahalaşdırmasında görür...

**Ölkədə manatın ucuzlaşmasından dərhal sonra ərzaq məhsullarının qiyməti də bahalaşdı. Satıcılar yalnız xaricdən gətirilən məhsulların qiymətində bahalaşma olduğunu desələr də, yerli məhsullarda bahalaşma da danılmaz faktdır.**

Son günlər süni qiymət artımına qarşı müvafiq qurumların yoxlamalar apardığını nəzərə alan və cərimələnməkdən çəkinən bir sıra marketlər alıcıları və müvafiq qurumları aldatmaq yolunu seçiblər. Belə ki, bir sıra marketlərdə ərzaq məhsullarının qiyməti kassada vurulan qiymətlərlə eynilik təşkil etmir. Hətta bu marketlərdə sonda alıcılara çeki belə təqdim etmək istəmirlər.

Bu cür marketlərdən biri də “Neftçilər” metrosu yaxınlığındakı “Qarabağ market”dir. Marketdə ərzaqların üstündəki qiymət bir cür, kassada isə başqa cürdür. Məsələn, “Hazer cevizli lokum” vitrində 3 manat 60 qəpik və 3 manat 85 qəpiyə qoyulsa da, kassada 4 manatdan, “Şəfa” fülesinin kiloqramı 6 manat 80 qəpik olsa da, kassada 7 manatdan hesablanırdı. Mayonezlərə gəlincə, vitrindəki qiymətlərlə kassada alıcıdan çıxılan məbləğ arasında 15-20 qəpik fərq vardı. Bu da alıcılarda narazılıq yaradırdı. Kassada alıcının kassirlə mübahisəsinin də şahidi olduq. Alıcılar aldadıldıqlarını bildirirdilər.

**Əli Quliyev adlı alıcı vitrindəki qiymətlə kassada ondan alınan məbləğin çox fərqli olduğunu dedi:** “Bizi niyə aldadırlar. Ərzağın qiyməti vitrində necədirsə, kassada da elə çıxılmalıdır. Bəlkə mən heç o qiymətə həmin məhsulu almayacağam”.

Digər marketlərdə də oxşar vəziyyəti müşahidə etdik.

**Süni qiymət artımı ilə qarşılaşanlar bu telefon nömrələri -498 -15-01 498-15 -04 (195-2) ilə əlaqə saxlaya bilərlər" elanına nəzərən həmin nömrələrdən birincisinə zəng elədik. Qaynar xəttin əməkdaşı olduğunu deyən Elnurə Fərzəliyeva gün ərzində onlara qiymət artımı ilə bağlı yüzlərlə zəng gəldiyini bildirdi:** “Biz gələn şikayətlər əsasında süni qiymət artımının qarşısını almaq üçün tədbirlər görürük. Bizə daha çox kişilər siqaretlərin bahalığı ilə bağlı müraciət edirlər. Prezident də süni qiymət artımının qarşısını almaq üçün sərəncam verdi və artıq tədbirlər görülür. Bizə vitrindəki qiymətlə kassadakı qiymət arasındakı fərq barədə də şikayətlər daxil olmaqdadır. Bu tip mağazalar barədə də müvafiq ölçü götürüləcək”.

Ümumilikdə mağazaların vitrinlərinə nəzər salsaq şəkər tozu, qənd, mürəbbə, un, tomat, kürü və sairə kimi məhsulların məhz “Azərsun”un istehsalı olduğunu görərik. Hər kəsə də məlumdur ki, Azərbaycandakı ən böyük inhisarçılardan biri “Azərsun Holdinq”dir. Mağaza sahibləri yerli məhsulların qiymətlərinin baha olmasını məhz yerli şirkətlərin malları onlara baha satması ilə əlaqələndirirlər. Ölkənin ən böyük qida sənayesi şirkəti “Azersun”un özü açıqlamasında bildirmişdi ki, Azərbaycan əhalisinə satdıqları məhsulların 90 faizini ölkədə istehsal edirlər. Belədisə, bu məhsulların mağazalara baha qiymətə satılması heç bir məntiqə sığmır.

**Adının çəkilməsini istəməyən mağaza müdiri yerli firmaların malları baha gətirdiyini dedi:** “Ərzaqların qiymətini artırdığımız üçün Vergilər Nazirliyindən gəlib bizi 10-15 min manat məbləğində cərimələyirlər. Halbuki burada bizim, yəni mağazanın bir günahı yoxdur. Əgər bahalaşmanın qarşısını almaq istəyirlərsə, əvvəlcə bu malları bizə od qiymətinə satan yerli holdinqləri cəzalandırsınlar. Bilmirik xaricdən gətirdiyimiz malların qiymət fərqini örtməyə çalışaq, yoxsa yerli bazardan alınan məhsulların. ”Azərsun" kimi yerli firmalar bizə məhsulları od qiymətinə satmasa, bu qədər bahalaşma olmaz. Yalnız xaricdən gətirilən məhsulların qiyməti artar. Bizə baha satıldığı üçün biz də baha satmağa məcbur oluruq. Əks təqdirdə, müflis olarıq".

Qeyd edək ki, fevralın 2-si səhər saatlarından etibarən siqaretlərin qiymətinin ucuzlaşdığına dair xəbərlər yayılsa da, bu ucuzlaşmanın yalnız böyük marketlərdə bəzi siqaretlərə şamil edildiyini müşahidə etdik. Bəzi marketlər isə firmalar tərəfindən ucuz aldıqları siqaretlərin satışını dayandırıblar. Çünki yaxın bir neçə gündə həmin siqaretlərin qiymətinin yenidən bahalaşacağı gözlənilir. Çünki bir müddət əvvəl Nazirlər Kabineti respublika ərazisinə gətirilən spirtli içkilərin, tütün məmulatlarının, eləcə də neft məhsullarının yeni aksiz dərəcələrini təsdiqləyib. Dəyişikliyin martın 1-dən etibarən qüvvəyə minəcəyi bildirilirdi. Bundan sui-istifadə edən işbazlar isə bu gün ucuz aldıqları siqaretləri vitrinlərdən yığışdırıblar ki, bahalaşanda yenidən vitrinə düzsünlər.

Vitrinlərdən yığışdırılan siqaret markalarından biri də “Kent”dir. Dünən 2 manat 40 qəpiyə satılan “Kent 4" markalı siqaret bu gün köhnə qiymətə - 1 manat 70 qəpiyə olub. 2 manat 80 qəpiyə, 3 manata satılan ”Sobranie" siqareti isə 2 manat 20 qəpiyə satılıb. Köşklərdə isə siqaretlərin qiymətində heç bir dəyişiklik yox idi. Satıcı İman Əliyev onlara siqaretin ucuzlaşması haqda heç bir göstəriş verilmədiyini dedi. Köşklərdə siqaretin qiymətləri bu cür idi: əvvəl 2 manata satılan “Sabranie” indi 2 manat 80 qəpiyə, 1 manat 20 qəpiyə satılan “LD” 1 manat 70 qəpiyə, 1 manat 50 qəpiyə satılan “Vinston” indi 2 manat 20 qəpiyə, 1 manat 70 qəpiyə satılan “Kent 4" 2 manat 40 qəpiyə satılırdı.






❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 47 (6075) 3 mart 2015



## 361 kilo arıqladı

Amerikada yaşayan yarım tonluq Mayra Rosales keçirdiyi əməliyyatlardan sonra 362 kilo arıqlayıb. Hazırda 90 kilo çəkisi olan qadını görənlər tanımır. 34 yaşlı qadın ağırlığının 80 faizini itirərək aktiv həyata yenidən qayıdıb. Dörd ildir arıqlamağa çalışan qadın illər əvvəl qardaşı oğlunu öldürməkdə günahlandırılıb. Çünki uşaq Mayranın yanında olarkən həyatını itirmişdi. Hər kəs uşağın onun altında qaldığını düşünürdü. Uşağın ölümündən sonra üzərində araşdırma aparan həkimlər onun başından zərbə aldığı üçün öldüyünü bildiriblər.



## "Ölməyimə icazə verin"

Çilidə yaşayan Valentina Maureira adlı uşağın internetdə yayımladığı video izlənmə rekordları qırır. "Kistik fibrosis" xəstəsi olan Maureira ölkə prezidenti Mişel Baçelet üçün hazırladığı videoda ölümcül xəstələrin iynə ilə öldürülməsinə icazə verilməsini istəyib. 6 yaşlı qardaşının da ölümcül xəstəlikdən öldüyünü bildirən Valentina əziyyət çəkmədən ölmək istədiyini deyib. Onun videosunun yayımlanmasından sonra açıqlama verən prezident qanunlarda dəyişiklik olmayacağını bildirib və 14 yaşlı qızı görmək üçün xəstəxanaya gedib.

# 49 milyon dollarlıq ev

Amerikanın San-Fransisko şəhərində tikilən və bu il istifadəyə verilən Lumina qüllələrində satışa çıxarılan iki mərtəbəli ev şəhərin ən bahalı evi ünvanını qazanıb. 49 milyon dollar qiyməti olan evin eyvanından şəhərin ən gözəl yerlərini görmək mümkündür. 8 balkonu, 4 mətbəxi və 5 hamamı olan hər kəsin diqqətini cəlb edir. Evin yerləşdiyi binanın hündürlüyü 120 metrə çatır. Satışa çıxarılan ev binanın ən yüksəkdə olan iki mərtəbəsindədir. Qeyri-adi mənzərəsi olan ev 49 milyon dollara satışa çıxarılıb. Qısa müddət sonra inşaatı bitəcək olan binadakı digər evlərin neçəyə satılacağı isə bəlli deyil.



# 104 yaşında saçı ağarmadı



İngiltərədə yaşayan qadının 104 yaşı olmasına baxmayaraq, hələ də saçı ağarmayıb. İngiltərədə yaşayan yaşlı qadının saçı hələ qəhvə rəngdədir. Ötən həftə 104 yaşını qeyd edən Coventry Freda Taylorun boyanmamış və ağarmamış saçları hər kəsin diqqətini cəlb edir. Başında bir dənə belə olsun ağ tük olmayan qadın bunun sirrini açıqlayıb. 104 yaşlı Taylorun sözlərinə görə o, həyatı boyu içki və siqaretdən istifadə etmədiyi üçün saçlarının ağarmadığını deyib.

## Dünyanın ən böyük aeroportu



Pekinin hava limanlarında sərnişin axını on milyonlarla nəfər təşkil edir və bu rəqəm durmadan artır. Çin paytaxtının hakimiyyət orqanları aeroportların həddən artıq yüklənməsi problemini həll etmək və getdikcə artan turist axını şəraitində sərnişinlərə komfort şərait yaratmaq məqsədilə yeni hava limanının ən yaxşı arxitektura layihəsi üçün müsabiqə elan ediblər. Belə bir aeroport üçün Zahi Hadid bürosunun (Zaha Hadid Architects) layihəsi seçilib. Dünyanın ən nəhəng terminalı olacaq və "Beijing new airoport terminal builing" adlanacaq yeni aeroport il ərzində 45 milyon sərnişinə xidmət edəcək. Yeni hava limanı Pekinin mərkəzindən 46 kilometr cənubda yerləşən Dasin rayonunda inşa olunacaq. Kompleksin ümumi sahəsi 2680 min hektar təşkil edəcək. Aeroport sərnişinlərin rahatlığı üçün hər cür şəraiti olan doqquz ədəd uçuş-enmə zolağına malik olacaq. Yeni obyektin tikintisinin 13 milyard dollara başa gəlməsi nəzərdə tutulur. Aeroportun tikintisi 2018-ci ildə başa çatacaq.



## "Səni sevmirəm" dedi, cərimələndi

Türkiyədə həyat yoldaşını sevməyən kişi cərimələnib. Boşanma ərizəsi verən cütlüyün məhkəmə prosesi tərəflərin bir-birilərinə qarşı səsləndirdikləri ittihamlarla seçilib. Ər-arvadın hər ikisi boşanmaqla yanaşı bir-birilərindən təhqir və həqarətə görə kompensasiya tələb ediblər. Məhkəmə hər ikisinin günahkar olduğu barədə qərar qəbul edir. Lakin qadın məhkəmənin bu qərarı ilə razılaşmayaraq Ali Apelyasiya Məhkəməsinə müraciət edib. Qadın bildirib ki, ərinin "Səni sevmirəm" sözləri ona emosional müstəvidə dağıdıcı təsir göstərib və qadın kimi alçaldıb. Ali Apelyasiya Məhkəməsi arvadın emosional zorakılığa məruz qaldığını sübuta yetirərək əri cərimələyib. Ərin həyat yoldaşına "Səni sevmirəm" deməsi məhkəmənin kişinin arvadına kompensasiya ödəməsi barədə qərar çıxarmasına əsas verib.




**QOÇ** - Fiziki cəhətdən çox yorulduğunuzu nəzərə alan ulduzlar əsas vaxtı istirahətə yönəltməyi tövsiyə edir. İqlimin dəyişkənliyi daxili orqanlarınızda neqativ hallar yarada bilər. Səfərə çıxmaq olmaz.

**BUĞA** - İlahi qanunlara zidd hərəkətlər etməsəniz, ulduzlar sizi sevindirəcək. Hətta ola bilər ki, çoxdan arzuladığınız məqamlar da yetişsin. Ürəyinizə yaxın insanlarla əlaqə yaradın.

**ƏKİZLƏR** - İşinizdə və yeni əməkdaşlıq istiqamətində şanslarınız məhdud olacaq. Hətta bunlar baş versə də, nəticə uğursuz görünür. Bu səbəbdən də əsas vaxtınızı mənəvi istirahətə ayırın.

**XƏRÇƏNG** - Ətrafınızda olan insanların əksəriyyəti fikir və rəylərinizə inanmır, səmimiyyətinizə şübhə ilə yanaşırlar. Bu münasibəti dəyişmək üçün özünüzü sübut edin. Axşam xoş yeniliklər gözlənilir.

**ŞİR** - Ürəyinizdə Tanrı sevgisi varsa, cılız insanların atmacalarından qubarlanmayın. Nəzərə alın ki, hər insanın öz xisləti var və hamıda qüsur axtarmağa da çalışmayın. Sülhpərvər olun.

**QIZ** - Şəxsi büdcənizi artırmaq üçün şanslarınız olacaq. Odur ki, deyilən istiqamətdə aktivləşməli, əlinizdən gələni etməlisiniz. Hər addımda ədalət prinsiplərini, doğruluğu əsas götürməlisiniz.

**TƏRƏZİ** - Yeni işlərə başlamaq, müqavilələr bağlamaq üçün şanslarınız olacaq. Amma çalışın ki, bütün sövdələşmələri nahardan sonraya saxlayasınız. Lazımsız məsrəflərə pul xərcləməyin.

**ƏQRƏB** - Bütün enerjinizi fəaliyyət müstəvisinə yönəldin. Zərrə qədər də olsa, tənbəlliyə, başısoyuqluğa yol verməyin. Ötən aydan yarımçıq qalmış mühüm işlərinizi hərəkətə gətirin.

**OXATAN** - Nə qədər çətin olsa da, bu təqvimi təmkinlə başa vurmalısınız. Əks təqdirdə Novruz gününə qədər mühüm planlarınızın reallaşma ehtimalı olmayacaq. İşlərinizdə daha çox məntiqə əsaslanın.

**OĞLAQ** - Mərhəmətli olun ki, ətrafınızdakı insanların rəğbətini qazanasınız. Ümumiyyətlə, bu gün ulduzlar müştərək yönümdə daha çox uğur qazanacağınızdan xəbər verir. Axşam evə tez gedin.

**SUTÖKƏN** - Qəribə də görünsə, ulduzlar bu gün daha çox təkbaşına hərəkət etməli olduğunuzu tövsiyə edir. Əks təqdirdə, aldığınız məsləhətlər cəhdlərinizi boşa çıxaracaq. Sevdiklərinizlə mübahisələrə yol verməyin.

**BALIQLAR** - Bütün addımlarınızda mövqeyinizi açıq şəkildə ortaya qoyun. Reallığı nəzərə alın ki, sizə şübhə ilə yanaşanların sayı azalsın. Bu gün büdcənizi artırmaq üçün işıq ucu tapacaqsınız. Ümidinizi heç vaxt itirməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 108 yaşına 105 yaşlı arvadı ilə girdi



Amerikanın Nyu-York ştatında dünyanın ən yaşlı cütlüyü yaşayır. Duranord Veillard və Jannanın evində sürpriz ad günü təşkil edilib. 82 ildir evli olan Duranord 108 yaşına girərkən sevdikləri də yanında olub. 14 nəvəyə və 12 nəticəyə sahib olan cütlük özlərini yaxşı hiss etdiklərini deyiblər. Hər səhər yüngül idmanla məşğul olan Duranord həyat yoldaşının səhərlər yulaf və meyvə yediyini deyib.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300